32_27 IYUl-QARA.qxd 8/28/2025 11:34 PM Page 1

UNİKAL

№32 (2262) 29 avqust 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Vaşinqton razılaşmasını pozmaq istəyən qüvvələr var, amma faydasız...



Səh.9

# Ramiz Mehdiyevin qalmaqallı ailə şirkəti ilə bağlı müəmma

*Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sabiq prezidenti Ramiz Mehdiyevin həyat yoldaşı Qalina Yuriyevna Mehdiyevanın sahibi olduğu "Fireland Vineyards" şərab zavodunun təmsilçiləri iddiaçı Elmar Səidovla məhkəmədə üz-üzə gəliblər. "Unikal"ın əldə etdiyi məlumata görə, proses Bakı Apellyasiya Məhkəməsində keçirilib. Məhkəmə çəkişməsindən belə aydın olub ki, iddiaçı Elmar Səidov Qalina Mehdiyevanın şərab zavodunda baş direktor imiş. Elmar Səidov işdən çıxmaq haqqında ərizə yazıb, lakin Qalina Mehdiyeva onu işdən çıxarmaqdan imtina edib. Belə olduqda Elmar Səidov məhkəməyə üz tutaraq işdən azad olunması iddiası ilə çıxış edib.*

Səh.8

## Monopolistlərdən ağlasığmaz bahalaşma



*Bu ilin yanvar-iyul aylarında Azərbaycana 1 milyard 477,8 milyon dollar dəyərində yeyinti məhsulları idxal olunub. "Yeni avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər verir ki, ötən ilin eyni dövrü ilə müqayisədə ərzaq məhsullarının idxalı 10% artıb. Belə ki, ötən ilin ilk 7 ayında xaricdən...*

Səh.6

## "Azərbaycan həm güc, həm də sülhün cəlbedici faktorlarını istifadə edir"



*Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, Zəngəzur dəhlizi ilə bağlı İran tərəfinin hansı nəticələr çıxarmalı olduğundan, Ermənistanın gələcək hökuməti Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, hansı çətinliklərlə üzləşəcəyindən, Ermənistanla sülh sazişinin...*

Səh.4

## Boş qalan yerlərə ixtisas seçimi başladı



*Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi başlanıb. Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında...*

Səh.13

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:37 PM Page 2



# Röyanın dəniz kənarında bodidə canlı ifası müzakirə yaratdı



***Xalq artisti Röya Ayxan görüntüsü ilə diqqət çəkib.***

"Unikal" xəbər verir ki, müğənnin sosial şəbəkədə istirahət zamanı çəkilən videosu yayılıb.

Milyonların sevimlisinin dəniz kənarında bodidə akustik müşayətlə canlı ifasına çoxsaylı bəyənmələr gəlib və rəylər yazılıb.

Qeyd edək ki, görüntü sənətçinin atasının vəfatından öncəki vaxta aiddir.

# Flora Kərimova niyə gündəmdən uzaqlaşıb?



***Xalq artisti Flora Kərimova uzun müddətdir gündəmdən uzaq qalmasının səbəbini açıqlayıb.***

Axşam.az-a açıqlama verən müğənni istirahət etdiyini, bütün verilişlərin dəvətini geri çevirdiyini bildirib: "Hamıya "yox" deyirəm. Cavanlar efirə çıxsınlar. Yoruluram, hazırlaşmaq, getmək... Çox şey düşünmək lazımdır, fiziki yoruluram. Heç yeni mövsüm də də "yox" deyib duracağam".

Bağında istirahət edən F.Kərimova nəvəsindən bəhs edib: "Bağda dincəldim. Rahatçılığım təmin olunur deyə, əziyyət çəkmədim. Mənə qarşı çox qayğı var. İndi də bağdayam. Evə bağlı adamam, öz evimi, ünvanımı, mənə məxsus olan hər şeyin qədrini bilir və qoruyuram. Ondan həz alıram. Ona görə də heç xaricə də getmək istəmədim. Qızım və nəvəm burada idi, getdilər. Çox şirin, istiqanlı nəvəm var. Deyir, mənimlə Azərbaycan dilində danış. Orada ingilis bağçasına gedir, ona görə də çətin danışır. Anası onunla Azərbaycan dilində danışır. Mahnılarımı tanıyır".

Müğənni plastik-cərrah Sevinc Heydərova ilə məhkəməsindən, qalib olmasından söz açıb: "Məhkəmədə qalib gəldim. İndi həkim buradan qaçaq düşüb. Çox yalanlar danışdılar, saxtakarlıqlar etdilər. Amma Allah yoluna saldı. Həqiqətin səsi elə gur idi ki, ona bata bilmədilər. Təzminat ödəmədi, canından pul çıxar?".



# İstirahətə gedən Ayselin başına iş gəldi

***İstirahətə yollanan müğənni Aysel Əlizadənin başına iş gəlib.***

Axşam.az xəbər verir ki, sənətçi təyyarənin gecikdiyini, hava limanında işıqların söndüyünü bildirib.

Video yayan Aysel "Mənə uçuşdan əvvəl paylaşım etmək düşmür. Elə bir ölkə yoxdur ki, nəsə olmasın. Təyyarəmiz düşürdü, təzədən göyə qalxdı, qayıtdı başqa yerdə saxladı. Sonra gəldik bu hava limanına. Çatdıq ki, gördük, hava limanında sistem çöküb, işıqlar sönüb. Təyyarənin içində 1 saat gözləmişik ki, getdiyimiz yerdə yağış dayansın və eniş edə bilək. Kimin nəfsi varsa, bizdən uzaq etsin. Təyyarəmiz də gecikdi" sözlərini deyib.

# Briliant Dadaşovadan aparıcıya irad



***Xalq artisti Briliant Dadaşova aparıcı Lamiyə Ələkbərovaya irad tutub.***

Buna səbəb aparıcının mərhum Əməkdar artist Aygün Bəylərin qızı Cananaya anası ilə bağlı sual verməsi olub. Sənətçi düşüncələrini "Show News" səhifəsində belə qeyd edib:

"Böyük insanların anasını itirməsi belə çox acıdır. Kiçik yaşlarında anasız qalmış şəxslə isə ana mövzusunu açmaq düzgün deyil. İnsan böyüdükcə uşaqlıq travması dərinləşir. Bu uşaqla anasının yalnız mahnılarını müzakirə etmək lazımdır". /olay.az

# Niyamın 530 minlik məhkəməsi yekunlaşdı



***Xəbər verdiyimiz kimi, müğənni Niyam Salami şəriki tərəfindən dələduzluqla üzləşdiyini, boynuna 530 min manat borc qoyulduğunu bildirmişdi.***

Sənətçi məhkəmənin yekunlaşdığını deyib. O bildirib ki, günahsız olduğu sübut edilib: "İl yarımdır zülm çəkirəm. Mənə olan təxribat davam edirdi. Vəkili gəldi ki, müqavilə imzalayaq. Vərəqləri oxuyub qol çəkirdim. Sən demə, ağ kağıza qol çəkdiriblər. Gedib qolumun üstündə yalançı mətn yazıblar, guya 530 min manat borc almışam və 550 min manat qaytaracağam. Amma hakimonların saxtakarlığı anladı və iş mənim xeyrimə yekunlaşdı".

# Elvinin adından dələduzluq

***Müğənni Elvin Abdullayevin adından dələduzluq edilib.***

Sənətçi teleqramda onun adından profil yaradıldığını və dostlarından pul istənildiyini deyib. "Mənim adımdan teleqramda ətrafımda olan 10-15 insandan pul istənilib. Sanki mənəm kimi danışır, söhbət edir. Bir neçə adam da təəssüf ki, aldanıb və pul göndərib. Ehtiyatlı olun. Dostlarıma, məni tanıyanlara deyirəm ki, sizə də belə mesaj gəlsə, inanmayın. Diqqətli olun" deyə, Elvin əlavə edib.

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:39 PM Page 3



# Azərbaycanda xüsusi təhsil ləğv edilir? - Rəsmi cavab



***Azərbaycanda sağlamlıq imkanları məhdud olan uşaqlar üçün nəzərdə tutulan xüsusi təhsilin ləğv edilməsi ilə bağlı iddialar əsassızdır.***

"Unikal" xəbət verir ki, bu bardədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən (MÜTDA) "report"a məlumat verilib.

Məlumat verilib ki, xüsusi təhsildə təhsilalanların sayı cari vəziyyətdə 11 881 nəfər şagirdir. Həmin şagirdlər dövlət tərəfindən təlim vasitələri ilə (yemək, geyim, ayaqqabı, zəruri avadanlıq və fərdi texniki vasitələrlə və s.) təmin edilir.

Sağlamlıq imkanları məhdud şagirdlər üçün bir sıra ümumi təhsil müəssisələrində xüsusi siniflər də fəaliyyət göstərir. İnklüziv təhsilə cəlb edilən şagirdlərin sayı cari vəziyyətdə 333 nəfər təşkil edir. 2025-ci ildə artıq Bakı şəhərində və bölgələrdə 67 məktəbdə inklüziv təhsil həyata keçirilir.

2025-2026-cı il tədris ilində daha 24 müəssisəsədə (Bakı şəhəri üzrə-11, regionlar üzrə-13) inklüziv təhsil həyata keçiriləcək.

# Gənc əsgərlərin andiçmə mərasimi keçirilib



***Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Mühafizə alayında ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-mayoru Mirsaleh Seyidovun iştirakı ilə həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

"Unikal" xəbər verir ki, Dövlət Himni səsləndirildikdən sonra Dövlət Bayrağı hərbi marş sədaları altında meydanın mərkəzinə gətirilib, şəhidlərin abidəsi önünə gül dəstələri qoyulub, onların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ədliyyə sahəsində həyata keçirilən uğurlu islahatlar, o cümlədən, Mühafizə alayının öz vəzifələrini bu gün də layiqincə icra etdiyi qeyd olunub.

Ədliyyə naziri III dərəcəli dövlət ədliyyə müşaviri Fərid Əhmədovun təbrik və tövsiyələri gənc əsgərlərin diqqətinə çatdırılıb.

Vətənə, xalqa və dövlətə sədaqət andı içən gənc əsgərlər Ali Baş Komandanın əmrinə hər zaman hazır olduqlarını, nizam-intizamı qoruyacaqlarını bildiriblər.

Sonda şəxsi heyətin marş sədaları altında təntənəli keçidi izlənilib.

# Valideynlərinin döydüyü azyaşlılar körpələr evinə yerləşdiriləcək

***Ağdamda valideynlərinin zorakılığa məruz qoyduğu azyaşlının kiçik qardaşı da körpələr evinə yerləşdiriləcək.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyindən (SXA) "Unikal"a verilən məlumata görə, SXA-nın əməkdaşları hər iki uşağın vəziyyəti ilə yaxından maraqlanır və azyaşlıların mənafeyinə uyğun addımların atılması məqsədilə aidiyyəti qurumlarla koordinasiyalı şəkildə iş aparırlar.

"Hazırda Respublika Neyrocərrahiyyə Xəstəxanasında müvafiq tibbi xidmətlər göstərilən azyaşlının müalicə və müayinələri bitdikdən sonra onun körpələr evinə yerləşdirilməsi nəzərdə tutulub.

Həmçinin onun qardaşı, 2024-cü il təvəllüdlü və hazırda Ağdam Rayon Mərkəzi Xəstəxanasında həkimlərin müşahidəsi altında saxlanılan digər azyaşlı da Bakı şəhərinə gətiriləcək Sosial Xidmətlər Agentliyi tərəfindən müvafiq körpələr evinə yerləşdiriləcək", - deyə əlavə edilib.

# Ramiz Mehdiyevin qalmaqallı ailə şirkəti ilə bağlı müəmma

## "Fireland Vineyards" şərab zavodu dövlətdən subsidiya ala bilir, ancaq dövlətə vergi borcunu ödəməyə can çəkir... - Absurdun pik nöqtəsi!

***Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sabiq prezidenti Ramiz Mehdiyevin həyat yoldaşı Qalina Yuriyevna Mehdiyevanın sahibi olduğu "Fireland Vineyards" şərab zavodunun təmsilçiləri iddiaçı Elmar Səidovla məhkəmədə üz-üzə gəliblər. "Unikal"ın əldə etdiyi məlumata görə, proses Bakı Apellyasiya Məhkəməsində keçirilib.***

Məhkəmə çəkişməsindən belə aydın olub ki, iddiaçı Elmar Səidov Qalina Mehdiyevanın şərab zavodunda baş direktor imiş. Elmar Səidov işdən çıxmaq haqqında ərizə yazıb, lakin Qalina Mehdiyeva onu işdən çıxarmaqdan imtina edib. Belə olduqda Elmar Səidov məhkəməyə üz tutaraq işdən azad olunması iddiası ilə çıxış edib. Məhkəmə iddiaçının xeyrinə qərar çıxarıb. Elmar Səidovun Qalina Mehdiyevanın zavodundakı baş direktor postundan uzaqlaşmasına israrla çalışmasının səbəbi bilinmir.

2007-ci ilin yanvarında dövlət qeydiyyatına alınan "Fireland Vineyards" MMC Azərbaycanın ən böyük şərab istehsalçılarından biridir. Fəaliyyətə başladıqdan 1 il sonra məlum olmuşdu ki, "Fireland Vineyards" MMC-nin 440 min 963 manat 20 qəpik vergi borcu var. Borca görə 2018-ci ildə Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamenti zavodun baş direktoru Elmar Səidovun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəməyə ərizə təqdim etmişdi. Bu xəbər zavodun illik gəlirini də təxmin etməyə imkan vermişdi. 1 ilə 440 min 963 manat 20 qəpik vergi borcu yaranan zavodun illik dövriyyəsi təxminən 2,5 milyon manatdan artıq olmalıdır.

"Yeni Müsavat"ın yazdığına görə, "Fireland Vineyards" MMC xammal kimi əsasən Novxanı qəsəbəsində "Duzlu göl" adlandırılan ərazinin yaxınlığında yetişdirilən üzümdən istifadə edir. Həmin ərazidə Qalina Mehdiyevaya məxsus 113 hektar torpaq sahəsində üzümlüklər var. Zavodun xammal kimi bu bağın üzümlərindən istifadə etdiyi deyilir. Bu həmin ərazidir ki, Qalina Mehdiyeva dövlətdən hər hektara görə 50 manat subsidiya almışdı. İllər öncə məlum olmuşdu ki, Mehdiyevin oğlu da elə həmin ərazidəki üzümlüklərinə görə dövlətdən 42 hektar üçün 2 min 100 manat subsidiya almaqdan çəkinməyib. Maraqlısı odur ki, Mehdiyevlər belə bir kəmfürsətcilliyə 2017-ci ildə yol veriblər. O zaman Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin həyat yoldaşı Qalina Mehdiyeva və oğlu Teymur Mehdiyev Novxanıdakı üzüm bağlarına görə dövlətdən üst-üstə 7 min 700 manat subsidiya almışdılar. Aydın olmuşdu ki, Qalina Mehdiyeva 113 hektarlıq üzüm bağı üçün 5 min 600 manat, oğlu isə 42 hektar üçün 2 min 100 manat subsidiyadan vaz keçməyib. Qəribədir deyilmi? Nəhəng biznes imperiyasına malik olasan, el dili ilə desək, pulunu balta kəsməyə, lakin dövlətin bir neçə min manatlıq subsidiyasına göz dikəsən... Əlbəttə, hər bir halda bu, Mehdiyevlərin qanuni haqqıdır, lakin eyni zamanda onların bitib-tükənməyən iştahından xəbər verir.

Əks halda hər il yüzminlərlə şüşə şərab istehsal edən, bunlardan milyonlarla manat qazanan biri dövlətin subsidiya olaraq ayırdığı hektara 50 manatdan niyə imtina edə bilməsin ki?!

Üstəlik, bu ilin aprelində məlum olmuşdu ki, Ramiz



Mehdiyevin xanımı Qalina Mehdiyevanın təsisçisi olduğu "Fireland Vineyards" MMC-nin vergi borcu yaranıb. Həmin vaxt bu borcun 23 545,14 manat olduğu deyilirdi.

Onu da deyək ki, "Fireland Vineyards"ın vergi borcu ilə bağlı xəbərlər illərdir bir-birini əvəzləyir. 2023-cü ildə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumat bazasından əldə olunan rəqəmlərdən belə aydın olurdu ki, adı çəkilən MMC-nin vergi borcu 128 848.56 (09.01.2023-cü il tarixinə) manatdır.

Ötən ilin aprelində isə Mehdiyevlərin şirkətinin vergi borcu 21 min 803 manat 47 qəpik olaraq açıqlanmışdı. Yeri gəlmişkən, aradan keçən bir ildə həmin borcun 2 min manat artdığı aydınlaşır.

2021-ci ilin 11 oktyabr tarixində "Fireland Vineyards"ın dövlət büdcəsinə 451 min 128 manat 51 qəpik vergi borcu yaranıb. Üç ay sonra - 2022-ci ilin fevralında isə vergi borcu 125 min 601 manat 9 qəpik təşkil edib.

Xülasə, Mehdiyevlərin ailə şirkətinin vergi borcu olmadığı az qala bircə il də yoxdur!

Və bu absurdun pik nöqtəsidir: nəhəng varidata malik bir ailə dövlətin 7 min 700 manatlıq subsidiyasından belə vaz keçə bilmir, ancaq zamanı gələndə dövlətə vergi borcunu ödəməyə can çəkir. Fikrimizcə, əlavə şərhə ehtiyac qalmır.

***Sənan Mirzə***

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:41 PM Page 4



# Vaşinqton razılaşmasını pozmaq istəyən qüvvələr var, amma faydasız...



***Prezident İlham Əliyev "Əl Ərəbiyyə" telekanalına müsahibəsində bir sıra ciddi mesajlar verib. Dövlət başçısının müsahibəsi müxtəlif beynəlxalq güclərə ünvanlanan mesajlar toplusu kimi dəyərləndirilə bilər.***

ABŞ və Avropa İttifaqına ünvanlanan mesaj Azərbaycanın Qərblə əməkdaşlığa açıq olduğunu, regional sabitliyə töhfə vermək niyyətini göstərir. İran üçün bu, qarşıdurmanın faydasız, əməkdaşlığın isə zəruri olduğunu təsdiqləyir. Rusiya üçün mesaj ondan ibarətdir ki, Azərbaycan müstəqil siyasət yürüdür və heç bir güc mərkəzinin diktəsi ilə hərəkət etmir. Ərəb dünyası üçün isə bu müsahibə Azərbaycanın İslam həmrəyliyinə sadiqliyini və regionda sabitlik təşəbbüslərində fəal iştirakını nümayiş etdirir.

Ölkə başçısı sülh prosesinə təhdid yaradıla biləcəyindən bəhs edib. "Ümid edirəm ki, prosesə heç bir müdaxilə olmayacaq. Lakin yenə də məndə yüz faiz zəmanət yoxdur, çünki Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək. Həmçinin bilirik ki, onlar yeni konstitusiya layihəsi üzərində işləyirlər. Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər", - Prezident vurğulayıb.

Milli Məclisin deputatı Sahib Alıyev deyib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına verdiyi intervüdə fikirmcə, ilk dəfədir ki, Ermənistanla sülh haqda bu dərəcədə nikbin danışıb və nikbinliyinin səbəblərini də göstərib. Onun sözlərinə görə, səbəblərdən biri avqustun 8-də Azərbaycanla Ermənistan arasında sülh yönündə atılan çox mühüm addımı "dünyanın bir nömrəli ofisi"nin dəstəkləməsidir: "Yəni, hakimiyyət dəyişikliyi, yaxud da hər hansı başqa bir səbəbdən Ermənistan 8 avqust razılaşmasından imtina edəcəyi təqdirdə cənab Prezidentin də vurğuladığı kimi ABŞ ilə əlaqələri pisləşəcək. Çünki onun özü də bildirdi, bu, cənab İlham Əliyevlə Nikol Paşinyan yox, Azərbaycanla Ermənistan arsında imzalanan sənəddir. Üstəlik, həmən razlaşmanı səmimi dəstəkləyən dövlətlərin də buna necə reaksiya verəcəkləri unudulmamalıdır. Deməк, 8 avqust razılaşmasından imtina Ermənistana yaxşı heç nə vəd etmir. Həm də ona görə ki, "Regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik". Müzəffər Ali Baş Komandanımızın xəbərdarlıq xarakterli bu açıqlamasının nə demək olduğunu xəstə cəmiyyətin ən radikal ünsürləri, yəni revanşistlər qarışıq Ermənistanda yəqin hər kəs anlayır. Onun Zəngəzur dəhlizi haqda bu açılaması da həmən cəmiyyətin müəyyən dərəcədə ayılmasına məncə, təsirsiz ötüşməyəcək: "Prezident Tramp Zəngəzur dəhlizinə öz adını verdikdən sonra əminəm ki, bu layihə çox yaxın zamanda reallaşacaq. Fiziki infrastrukturun, yəni, dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə





cəmi 42 kilometrdir. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək". İranda Vilayəti kimi ünsürlərin bu dəhlizin açılmasına imkan verməyəcəkləri haqda hədələrinə dövlət başçımızın yanaşması da məncə, çox düşündürücü və o hədəni səsləndirənlər üçün sarsıdıcı idi. Doğrudan da, Pezeşkiani İran xalqı seçdiyindən ölkəsinin mövqeyi haqda onun dedikləri əsas götürülməlidir. Legitimliyi sual altında olanların yox! Məhz bu səbəbdən onların sərgilədikləri mövqenin cənab İlham Əliyevin təbirincə desək, "Bizim üçün əhəmiyyəti sıfırdır". Burada sual oluna bilər ki, birdən İrandakı həmən çevrələr hədələrini reallaşdırmaq istəsələr, onda necə olacaq. Heç nə, belədə qarşılarında ilk növbədə onlara 12 günlük savaş zamanı "qələbə" yaşadan dövlətiABŞ-ni görəcəklər. Təbii ki, İrandakı rejimə həlledici son zərbəni endirmək üçün yaranmış fürsətdən İsrail də necə lazımdır faydalanmağa çalışacaq. Və Azərbaycan bu dəfə baş verənləri sadəcə izləməyəcək, yaxud da həmən savaş günləri bildiridiyi kimi bunu qəbuledilməz adlandırmayacaq. Əksinə, bizə düşməncəsinə yanaşanların, yaratdığımız geosiyasi reallıqla barışmaq istəməyənlərin siyasi səhnədən rədd olub getmələri üçün əlindən gələni əsirgəməyəcək".

Sosial Tədqiqatlar Mərkəzinin eksperti Aqşin Kərimov isə bildirib ki, Prezident Əliyev Azərbaycan-Ermənsitan münasibətlərində gələcəkdə mənfi tendensiyaların ola biləcəyini istisna etməyərək, prosesi iki fikirlə izah etdi: "Azərbaycanla Ermənistan arasında Vaşinqtonda əldə edilmiş razılıqlara xarici müdaxilə hələ də ehtimal olaraq qalır. Azərbaycan Ermənistanın daxili siyasi mozaikasında proqnozlaşdırıla bilməsi çətin olan ssenarilər növbəti parlament seçkiləri fonunda reallaşa bilər. Prezident Əliyev bununla Azərbaycanın Ermənistanda baş verə biləcək və region üçün risk yaradacaq hadisələrə, o cümlədən Nikol Paşinyanın devrilmək ehtimallarına eyham vurdu. Bunun regional nəticələri odur ki, Ermənistandakı xaos ssenarisi ilə İrəvanın ABŞ ilə deyil, həm də Avropa İttifaqı, Türkiyə və ərəb dünyasındakı münasibətlərinə xələl gətirə bilər. Paşinyanın devrilməsi üçün isə ehtimalla Rusiya ilə bərabər, İranın da prosesdə rol ala bilmək potensialına diqqət çəkildi. İlham Əliyev bununla hadisələrə çevik və operativ reaksiya vermək üçün Azərbaycan dövlətinin strategiyasının olduğunu önə sürdü. Bu, Azərbaycanın proseslərə müdaxiləsini, Ermənistan üzərində nəzarət əməliyyatlarını gücləndirməsini prioritetləşdirən məqamları ehtiva edir".

Ekspert hesab edir ki, bu xüsusda Əliyevin Zəngəzurun Sovet Rusiyasının qərarı ilə Ermənistana verilməsini xatırlatması başqa ssenarini də motivasiya edir. Onun qənaətincə, bu, Ermənistandakı gələcək qarışıqlıqlar və qeyri-müəyyənliklər fonunda Azərbaycanın hərbi və kəşfiyyat əməliyyatları ilə dəhlizi götürmək imkanlarını nəzərdən keçirir: "Nikol Paşinyanla Ağ Evdə 8 avqustda keçirilən görüş, müzakirələrdə Donald Trampın brokerliyi Azərbaycan üçün əhəmiyyətli qazancdır. Vaşinqton sammitindən gələn müsbət siqnallardan biri də ABŞ-nin Azərbaycanla birlikdə regional təhlükəsizliyin təmin edilməsində iştiraka hazır olduğu məqamdır. Bu, Azərbaycanla ABŞ arasındakı əməkdaşlığın gələcək dərinliyini motivasiya edərək Bakıya Zəngəzur dəhlizinin təmini ilə bərabər Xəzər dənizi hövzəsində də təhlükəsizlik dividentləri gətirir. Bu yaxınlarda İlham Əliyevin Kəlbəcərdə Xəzər dənizindəki mümkün təhdidlər barədə xəbərdarlıqlarını bu məntiqlə mənalandırmaq olar. Başqa yandan, İlham Əliyev müsahibəsində Zəngəzur dəhlizi ilə əlaqədar İran elitasındakı fikir ayrılıqlarının əslində gələcək üçün böyük əhəmiyyət daşımadığını vurğuladı. Əliyev İranın ali rəhbəri Seyid Əli Xameneinin müşaviri Əli Əkbər Vilayətini hədəf göstərərək Tehrandakı radikal qüvvələrin prosesə manea yarada bilməyəcəyini, daha doğrusu onların bunun üçün geosiyasi imkanlarının olmadığı fikrini irəli sürmüş oldu. Əliyev bununla İranda mötədillərlə mühafizəkarlar arasındakı geosiyasi hadisələrə yanaşmalardakı fərqliliklərə incə şəkildə toxundu. Bu, İranın rəhbəri Əli Xamneinin İranın islahatçı rəsmilərinin daxili və xarici siyasətdə islahatlarla bağlı çağırışlarını rədd etməsinin Zəngəzur dəhlizinə nisbətdə əhəmiyyətinin olmamasına da diqqəti yönəldir".

**Seymur Əli**

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:41 PM Page 5



# İlham Əliyev Pekindəki Zəfər paradında iştirak edəcək



***Çində keçiriləcək qələbə bayramına 26 xarici lider qatılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Çin Mərkəzi Televiziyası məlumat yayıb.

Onların arasında Azərbaycan prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Rusiya prezidenti Vladimir Putin, Şimali Koreya lideri Kim Çen In, İran prezidenti Məsud Pezeşkian, Pakistanın baş naziri Şahbaz Şərif və digər liderlər var.

Qeyd edək ki, Çin sentyabrın 3-də Çin və Sovet ordularının İkinci Dünya Müharibəsində Yaponiya təcavüzü üzərində birgə qələbəsinin 80-ci ildönümünü qeyd etmək üçün prezident Si Cinpinin rəhbərliyi ilə hərbi parad keçirəcək.

Xatırladaq ki, Paşinyan və İlham Əliyev ŞƏT sammitində iştirak edəcəklər.

Avqustun 31-dən sentyabrın 1-dək Çinin Tianjin şəhərində keçiriləcək sammitə 20-dən çox ölkənin liderləri və 10 beynəlxalq təşkilatın rəhbərləri qatılacaq.

*Ağarza Elçinoğlu*

# Avropalı diplomat İlham Əliyevin qəbulunda

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 28-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.***



"Unikal" xəbər verir ki. Maqdalena Qrono Avropa İttifaqının rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırıb, Azərbaycan Prezidentini Avropa İttifaqının rəhbərliyi və öz adından Vaşinqtonda Ermənistanla münasibətlərin normallaşdırılması, sülh gündəliyi ilə bağlı əldə edilmiş mühüm nəticələr münasibətilə təbrik edib. O, bu prosesin regionda davamlı sülhün təmin olunmasına böyük töhfə verdiyini vurğulayıb. Qonaq Avropa İttifaqına üzv dövlətlərin də Azərbaycanla Ermənistan arasında əldə olunmuş sülhü dəstəklədiklərini bildirib. Maqdalena Qrono, həmçinin Avropa İttifaqının iki ölkə arasında razılaşdırılmış məsələlərin, o cümlədən nəqliyyat dəhlizinin həyata keçirilməsi prosesinə dəstək verməyə hazır olduğunu qeyd edib.

Prezident İlham Əliyev salamlara və təbriklərə görə minnətdarlığını bildirib, onun da salamlarını Avropa İttifaqının rəhbərliyinə çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı Vaşinqtonda əldə olunan nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini deyərək, bu prosesdə Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi vurğulayıb. Prezident İlham Əliyev qeyd edib ki, ABŞ-ın vasitəçiliyi ilə imzalanmış Vaşinqton bəyannaməsi, sülh sazişinin paraflanması və Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan və Ermənistanın birgə müraciəti sülh prosesində atılan mühüm addımlardır.

Görüşdə ölkəmizin Ermənistanla ikitərəfli əsasda etimad quruculuğu tədbirlərini dəstəklədiyi qeyd olunub. Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat və tranzit bağlantısının yaradılmasının vacibliyi bir daha vurğulanıb, xüsusilə Naxçıvanda nəqliyyat infrastrukturunun yenilənməsi istiqamətində Avropa İttifaqı ilə əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Ərdoğanla Zelenski telefonla danışdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, danışıq zamanı Türkiyə-Ukrayna ikitərəfli münasibətləri, Ukrayna ilə Rusiya arasındakı sülh prosesi, eləcə də regional və qlobal məsələlər müzakirə olunub.

Prezident Ərdoğan Alyaska və Vaşinqtondakı təmasları yaxından izlədiklərini qeyd edərək, müharibənin qalıcı sülhlə nəticələnməsi üçün Türkiyənin səylərini davam etdirdiyini, sülhün təmin olunmasından sonra ölkəsinin Ukraynanın təhlükəsizliyinə dəstəyini davam etdirəcəyini bildirib.

Ukraynanın Müstəqillik Günü münasibətilə təbriklərini çatdıran Türkiyə Prezidenti qeyd edib ki, Ukrayna-Rusiya müharibəsində ədalətli bir həll mümkündür, tərəflər arasında danışıqları gücləndirərək davam etdirmək zəruridir, Türkiyə isə sülhün yolunu açacaq yüksəksəviyyəli təmasların həyata keçməsi üçün əlindən gələni etməyə hazırdır.

# Ombudsmandan Ağdamdakı hadisəyə reaksiya

***Azərbaycan İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ağdamda valideynləri tərəfindən şiddətə məruz qalan azyaşlılarla bağlı məlumat yayıb.***

"Unikal"ın məlumatına görə, Ombudsmandan bildirilib ki, şiddətə məruz qalmış azyaşlıların hüquqlarının müdafiəsi aparatın diqqət mərkəzindədir.

Qeyd olunub ki, mediada Ağdam rayonunda atası tərəfindən döyüldüyü iddia edilən 2 azyaşlı uşağın xəstəxanaya yerləşdirilməsi ilə bağlı məlumat yayımlandığı andan etibarən məsələ Ombudsman Aparatı tərəfindən araşdırılır, uşaqların vəziyyəti nəzarətdə saxlanılır.

Hazırda 2023-cü il təvəllüdlü uşaq Ağdam Rayon Mərkəzi Xəstəxanasında həkim nəzarəti altındadır. 2024-cü il təvəllüdlü uşağın isə Respublika Neyrocərrahiyyə Xəstəxanasına əməliyyat olunduğu və hazırda vəziyyətinin ağır olduğu müəyyən edilib.

Məsələ ilə bağlı Ombudsman Aparatı tərəfindən Daxili İşlər Nazirliyi və Ağdam Rayon İcra Hakimiyyətinə sorğular göndərilib.



Uşaqların hüquqlarının qorunması, zorakılıqdan müdafiəsi və valideynlərin əməllərinə qanunvericiliyin tələblərinə uyğun olaraq hüquqi qiymət verilməsi məsələsi tərəfimizdən nəzarətdə saxlanılır.

# Namiq Qaraçuxurlu Rusiya sərhəddində saxlanıldı

***Meyxanaçı Namiq Qaraçuxurlu (Namiq Şükürov) Rusiyaya buraxılmayıb.***

"Unikal" olay-a istinadən xəbər verir ki, qonşu ölkəyə yollanan sənətçi ötən gecə Şeremetyevo Beynəlxalq Hava Limanında sərhəd xidməti əməkdaşları tərəfindən saxlanılıb. İfaçının köməkçisi İlkin Şükürovun da (qardaşı oğlu - red.) ölkəyə keçməsinə icazə verilməyib. Bir neçə saat dindirildikdən sonra İlkin sərbəst buraxılıb. İddialara görə, Namiq Qaraçuxurlunun saxlanılma prosesi bir neçə saat çəkib. Səfirlik hazırda onun buraxılması üçün danışıqlar aparır. Dindirildikdən sonra Namiq Qaraçuxurlu da sərbəst buraxılıb.

# Bayramov Maqdalena Qronon ilə görüşdü

***28 avqust 2025-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrononu qəbul edib.***



Bu barədə "Unikal"a XİN-dən məlumat verilib. Görüş zamanı Azərbaycan-Avropa İttifaqı (Aİ) əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri, Azərbaycan-Ermənistan normallaşma prosesi, habelə regional və beynəlxalq məsələlər müzakirə olunub.

Azərbaycan və Aİ arasında iqtisadi, ticarət, nəqliyyat, enerji təhlükəsizliyi, yaşıl enerji, humanitar və s. istiqamətlər üzrə əməkdaşlıq məsələləri nəzərdən keçirilib. İki tərəf arasında yüksək səviyyədə təmasların məmnunluq doğurduğu, dialoqun davam etdirilməsinin vacibliyi vurğulanıb.

Avropa İttifaqının xüsusi nümayəndəsi Azərbaycan Respublikasının Prezidentinin ABŞ-yə səfəri zamanı keçirilmiş Zirvə görüşü çərçivəsində Azərbaycan-Ermənistan normallaşma prosesində nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Avropa İttifaqının sülh prosesinə müxtəlif istiqamətlərdə dəstək verməyə hazır olduğunu bildirib.

Nazir Ceyhun Bayramov, öz növbəsində Vaşinqton sammiti zamanı əldə edilmiş tarixi razılıqlar, Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi üzrə əldə olunan irəliləyişlər və perspektivlər barədə qarşı tərəfə məlumat verib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



# Əhməd Muxtar həbs olundu

***"Meydan" TV işi üzrə daha bir nəfər həbs edilib.***

"Unikal" xəbər verir ki, foto-müxbir Əhməd Muxtar "Meydan" TV işi ilə əlaqədar saxlanılıb.

Onun barəsində istintaq orqanının təqdimatı əsasında bu gün məhkəmə həbs qərarı çıxarıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur
Sifariş 252.
Tiraj:2000

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:42 PM Page 6



# Azərbaycana qarşı fəaliyyət göstərən səhifələr ləğv edildi - Parlament komissiyası

***Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmizə qarşı davam edən informasiya kampaniyasına dair açıqlama yayıb.***

Parlamentdən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası 2025-ci il 6 avqust tarixli açıqlamasının davamı olaraq bildirir ki, "Facebook" sosial media və sosial şəbəkə platformasının Azərbaycan seqmentində qonşu dövlətlərdən birinin ərazisindən ölkəmizə qarşı aparılan informasiya kampaniyası avqust ayı ərzində davam edib.

Dezinformativ xarakterli və təxribatçı fikirləri əks etdirən kampaniya vahid mərkəzdən idarə olunmaqla yeni yaradılmış "Caspian Xəbər", "Caspian Times", "İşıq Media", "Pro Eminent Guild", "Next Azerbaijan" və sair bu kimi səhifələr vasitəsilə həyata keçirilib.



Qeyd edilib ki, geosiyasi hədəflərə nail olmaq məqsədilə Azərbaycan Respublikasının informasiya məkanına edilən bu cür müdaxilə cəhdlərinin qarşısı aidiyyəti dövlət qurumları ilə birgə fəaliyyət nəticəsində müvəffəqiyyətlə alınır.

Eyni zamanda, bildirilib ki, "Meta" şirkətinə edilən müraciətlər nəticəsində Azərbaycana qarşı fəaliyyət göstərən səhifələrin hamısı ləğv etdirilib.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı diqqətli olmağa, saxta informasiyalara inanmamağa çağırır, bənzər sosial media səhifələri ilə rastlaşdıqda bu barədə Milli Məclisin office@meclis.gov.az elektron poçt ünvanına məlumat verməyi xahiş edir.

# Leyla Əliyeva körpələr evi-uşaq bağçalarının açılışında iştirak etdi

***Avqustun 28-də Heydər Əliyev Fondu tərəfindən Şamaxının İkinci Cabanı və Böyük Xınıslı kəndlərində inşa olunan körpələr evi-uşaq bağçalarının açılışı olub.***

"Unikal" xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılışda iştirak edib.

Leyla Əliyeva körpələr evi-uşaq bağçalarının otaqları ilə tanış olub, uşaqlar üçün yaradılan şəraitə baxış keçirib.

Bildirilib ki, hər iki bağça kəndlərin mərkəzində yerləşir. Müasir və tam təchizatlı körpələr evi-uşaq bağçalarında balacalar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, tibb otağı, yeməkxana və digər inzibati, texniki otaqlar mövcuddur. Məktəbəqədər təhsil müəssisələri zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçaların həyətyanı ərazilərində yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.

İkinci Cabanı kənd körpələr evi-uşaq bağçasının rəhbəri Töfə Bəşirova jurnalistlərə açıqlamasında bildirib ki, bağça 41 ildir fəaliyyət göstərsə də, heç vaxt bu cür şərait olmayıb: "Köhnə bağça yararsız vəziyyətə düşdüyündən fərdi evdə fəaliyyət göstərirdik. Heydər Əliyev Fonduna müraciət etdik, qısa müddət ərzində yeni bağça inşa olunub təhvil verildi. Sabahdan yeni bağçada uşaqları qəbul edə biləcəyik. Yeni bağçada 1-3, 4-6 yaş arasında qruplar fəaliyyət göstərəcək. Qonşu kəndlərdən də bağçamıza müraciətlər var. Uşaqlarımız üçün yaradılan şəraitə görə Heydər Əliyev Fonduna dərin minnətdarlığımızı bildiririk".



Leyla Əliyeva daha sonra Şamaxıda və Ağsuda bir neçə ailəni ziyarət edib.

# Ümumtəhsil müəssisələrində yeni dərsliklər tədris olunacaq

***Yeni tədris ilində ümumtəhsil müəssisələrində Təhsil İnstitutunun təşkilatçılığı ilə hazırlanan yeni dərsliklər tədris olunacaq.***

Bu barədə "Unikal"a Təhsil İnstitutundan (ARTİ) bildirilib. ARTİ tərəfindən hazırlanan bu dərsliklər ümumtəhsil müəssisələrində tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir təlim yanaşmalarının tətbiqi və şagirdlərin biliklərinin daha sistemli formalaşdırılması məqsədini daşıyır.

2025-2026 -cı tədris ilində istifadəyə veriləcək yeni dərsliklər:

8-ci sinif - Kimya, Fizika, Biologiya (Azərbaycan və rus bölməsi üçün)

7-ci sinif - Coğrafiya (Azərbaycan və rus bölməsi üçün)

6-cı sinif - Riyaziyyat, Azərbaycan dili (tədris dili), Matematika, Azərbaycan dili (dövlət dili), Game changer (ingilis dili)



3-cü sinif - Həyat bilgisi (azərbaycan və rus bölməsi üçün)

Yeni kurikulumlar əsasında yeni dərsliklərin hazırlanması prosesi bu il də davam edir.

Yeni kurikulumlar əsasında hazırlanan aşağıdakı dərsliklər ilkin sınaq məqsədilə pilot siniflərdə istifadəyə veriləcək:

9-cu sinif - Kimya, Fizika, Biologiya, Coğrafiya

8-ci sinif - Coğrafiya, Riyaziyyat, Azərbaycan dili (tədris dili)

7-ci sinif - Riyaziyyat, Azərbaycan dili (tədris dili), Matematika, Azərbaycan dili (dövlət dili), Game changer (ingilis dili),

4-cü sinif - Həyat bilgisi

Qeyd edək ki, bu ildən etibarən tədrisi digər dillərdə aparılan 5-ci və 6-cı siniflərdə "Azərbaycan tarixi" fənni Azərbaycan dilində tədris ediləcək.



# Məmməd Ağayev Moskvada saxlanıldı

***Moskva Satira Teatrının sabiq direktoru Məmməd Ağayev saxlanılıb.***

"Unikal" Rusiya mətbuatına isitnadən xəbər verir ki, o, büdcə vəsaitini mənimsəməkdə ittiham edilir.

Faktla bağlı xüsusilə böyük məbləğdə dələduzluq maddəsi üzrə cinayət işi açılıb.

# Magistraturaya əlavə yerləşdirmənin qeydiyyat müddəti uzadılıb

***Ali təhsil pilləsinin magistratura səviyyəsinin boş qalan plan yerlərinə əlavə yerləşdirmə ilə qəbul olunan namizədlərin qeydiyyat prosesi 1 sentyabr saat 18:00-dək uzadılır.***




Bu barədə "Unikal"a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Qeyd edilib ki, namizədlər https://portal.edu.az/ platformasında "Ali və orta ixtisas təhsili müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçməklə müraciət edə bilərlər.

Müvafiq xidmətdən istifadə etməklə qeydiyyatdan keçməyən və təhsil müəssisəsindən təsdiq almayan şəxslər qəbul olunanların siyahısından xaric ediləcəklər.

# Rusiyanın Kiyevə hücumu zamanı Azərbaycan səfirliyinə ziyan dəyib



***"Avqustun 28-i, gecə saat 3 radələrində Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları baş verib".***

Bu barədə Xarici İşlər Nazirliyindən "Unikal"ın sorğusuna cavab olaraq bildirilib.

Qeyd edilib ki, raketlərdən biri ölkəmizin Ukraynadakı səfirliyinin binasının yaxınlığında partlaması nəticəsində yaranan zərbədən binaya zərər dəyib.

"Bəzi pəncərələr qırılıb, konsulluq bölməsinin damında çatlar əmələ gəlib. Səfirliyin əməkdaşları arasında xəsarət alan olmayıb. Səfirliyimiz fəaliyyətini davam etdirir", - məlumatda deyilir.

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:42 PM Page 7



# Azərbaycanlı itkinlərin ailə üzvləri ilk dəfə BMT-də qəbul edildi




***2025-ci il avqustun 28-də "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin təmsilçiləri Cenevrədə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR - The Office of the High Commissioner for Human Rights) Məcburi Yoxaçıxmalar üzrə Komitəsinin (CED - Committee on Enforced Disappearances) Katibliyi ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, görüşdə "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin sədri Könül Behbudova Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 3990 nəfər Azərbaycan vətəndaşının itkin düşdüyünü, onlardan 6 nəfərinin 2020-ci ildə 44 günlük müharibə zamanı itkin düşdüyünü diqqətə çatdırıb. Onların içərisində 71 nəfər uşaq, 284 nəfər qadın, 316 nəfər ahıl şəxs olub. O, "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin Azərbaycanda itkin ailələrini sıralarında birləşdirdiyini qeyd edərək, BMT-nin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin azərbaycanlı itkinlərin taleyinə aydınlıq gətirilməsi üçün səyləri artırmasının vacibliyini bildirib, onları itkin düşmüş Azərbaycan vətəndaşları barədə məlumatları təqdim etməsi üçün Ermənistana çağırış etməyə səsləyib: "30 ildən çoxdur ki, Ermənistan bu barədə heç bir məlumat vermir. Biz 2023-cü ilin avqustunda BMT-nin Baş katibinə, BMT Baş Assambleyasının prezidentinə, BMT-nin İnsan Hüquqları Şurasının prezidentinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına müraciət edərək yenə xahiş etdik ki, Ermənistana çağırış edilsin ki, itkin düşmüş şəxslərin taleyi barədə məlumatları açıqlasın, kütləvi məzarlıqların yerlərini Azərbaycan tərəfinə təqdim etsin. Bizə hələ cavab verilməyib. Beynəlxalq humanitar hüququn və onun əsas mənbəyi olan 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərinə əsasən, silahlı münaqişələr zamanı itkin düşmüş şəxslər barədə onların ailələrinin məlumat almaq haqqı birmənalı şəkildə tanınır. Biz hüquqlarımıza hörmətlə yanaşılmasını istəyirik".

Məcburi Yoxaçıxmalar üzrə Komitədə görüş zamanı Könül Behbudova 1 gün əvvəl atası vəfat etdiyi üçün bu toplantıya gəlməyin onun üçün çox çətin olduğunu da dilə gətirib: "Mənim atam 1992-ci ildə Zəngilanda itkin düşmüş oğlu Abbas Behbudovun həsrəti, nisgili, ağrısı ilə bu dünyadan köçdü. Mən onun hüzr mərasimini yarımçıq qoyaraq bura gəlmişəm ki, siz qardaşımın aqibəti barədə məlumat əldə etməkdə bizə köməklik edəsiniz. Bu, atamın ən böyük arzusu idi. Atam da minlərlə itkin ailəsinin illərdir gözləri yollarda qalan nümayəndələri kimi xəbər gözləyirdi".

Görüşdə itkin İlham Dadaşovun anası Elmira Dadaşova, itkin Şahin Əliyevin anası Mahuru Şahin, itkin Azad Cabbarovun həyat yoldaşı Fəridə Cabbarova, itkin Səxavət Canıyevin həyat yoldaşı Reyhan Canıyeva, itkin Oqtay Məmmədovun həyat yoldaşı Pərvanə Məmmədova və "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin digər təmsilçiləri təəssüflə qeyd ediblər ki, Ermənistanda Azərbaycana qarşı müharibə cinayətləri törətmiş şəxslərdən hələ bir nəfər belə məsuliyyətə cəlb olunmayıb, əksinə, müxtəlif vaxtlarda Ermənistan cəmiyyətində onlardan saxta qəhrəman obrazları düzəldirib.

İtkin ailələrinin üzvləri diqqətə çatdırıblar ki, 2020-ci ildən ötən 5 il ərzində işğaldan azad edilmiş ərazilərdə 28 kütləvi məzarlığın aşkarlanması dəhşətli mənzərədir, insanların kütləvi halda qətl edilərək qeyri-insani qaydada basdırılması və izlərinin itirilməsi, bütün insani dəyərlərə hörmətsizlik, vəhşilikdir. Xatırladılıb ki, bir sıra hallarda isə insanlar ailə üzvləri və yaxınları ilə birlikdə itkin düşüb, bütöv ailələr və nəsillər məhv edilib. I Qarabağ müharibəsində 61 ailənin 2-dən 7-dək üzvü itkin düşüb, heç birinin aqibəti bilinmir. "Qarabağ İtkin Ailələri" İctimai Birliyi tələb edib ki, Ermənistan kütləvi məzarlıqlarla əlaqədar xəritələri Azərbaycan tərəfinə təqdim etməlidir.

Məcburi Yoxaçıxmalar üzrə Komitədə görüş zamanı itkin ailələri Beynəlxalq Qırmızı Xaç Komitəsinin onların doğmalarından xəbər gətirəcəyinə inamlarının ciddi zədələndiyini qeyd ediblər.

Görüşdə "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin təmsilçiləri itkin düşmüş şəxslər probleminin qlobal mahiyyətli olduğunu, BMT-nin itkin düşmüş şəxslər üzrə xüsusi məruzəçisi institutunun yaradılmasına böyük ehtiyac olduğunu diqqətə çatdırıblar.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR - The Office of the High Commissioner for Human Rights) Məcburi Yoxaçıxmalar üzrə Komitəsinin (CED - Committee on Enforced Disappearances) Katibliyinin nümayəndələri - Gabriela Guzman, Albane Prophette Pallasco görüşdəki müzakirələrdən müvafiq qeydlər götürdüklərini bildiriblər.

Qeyd edək ki, bu, "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin müraciətlərinə BMT səviyyəsində baxılmasına dair ilk haldır.

# "Azərbaycan həm güc, həm də sülhün cəlbedici faktorlarını istifadə edir"

## Tofiq Zülfüqarov: "Hazırda həm Azərbaycan, həm də Ermənistan bu münaqişənin həlli nəticəsində siyasi dividend olaraq onları siyasi əsaslardan iqtisadi əsaslara çevirə bilsə, bu sülh daha da cəlbedici olacaq"

***Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Unikal"a müsahibə verib. O, Zəngəzur dəhlizi ilə bağlı İran tərəfinin hansı nəticələr çıxarmalı olduğundan, Ermənistanın gələcək hökuməti Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, hansı çətinliklərlə üzləşəcəyindən, Ermənistanla sülh sazişinin imzalanmasının şərtindən və Çində Azərbaycan-Rusiya prezidentlərinin görüşünün olub-olmayacağından danışıb.***

***-Tofiq müəllim, Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində mühüm məsələlərə münasibət bildirib. Bunlardan biri Zəngəzur dəhlizi ilə bağlıdır. Dövlət başçısı söyləyib ki, Zəngəzur dəhlizi İrandakı Şimal dəhlizinə dəstək olacaq və heç bir halda İran üçün təhlükə deyil. İran tərəfi bundan hansı nəticələr çıxarmalıdır?***



-İranın uzun müddət bu mövzuya sərgilədiyi münasibət və siyasət məntiqsiz idi. İran uzun müddət Rusiya ilə bir yerdə Şimal-Cənub Dəhlizi barəsində tədbirlər, sammitlər keçirirdi, müxtəlif sənədlər və qaydalar uyğunlaşdırılırdı. Şimal-Cənub Dəhlizi onların strateji xətti idi. İndi birdən-birə buna qarşı çıxmağa başladılar. Bu da məntiqə uyğun deyil. Mənim fikrim odur ki, işğal vaxtında həmin bölgədə qaçaqmalçılıq mövcud idi. Həmin qruplaşmalar bu kanalı itirməmək üçün İran daxilində təbliğat aparırdılar, məntiqsiz mövqe sərgiləyirdilər. Qırmızı xətt və s. kimi cəfəng fikirlər səsləndirirdilər. İndi normal məntiqlə, İranın maraqlarını üstün götürərərk İran Prezidenti məsələyə münasibəti dəyişdirmək qərarına gəlib. Əminəm ki, bu proseslər daha sürətlə gedəcək. Bəzən belə fikir səslənir ki, Zəngəzuru nəzarət altında saxlayan hansısa ölkə dəhlizi öz nəzarəti altında saxlayacaq. Bu, məntiqə uyğun olmayan fikirdir. Tranzit yolları ona görə tranzitdir ki, bu layihədə iştirak edən hər bir ölkənin öz ərazisində nəzarət imkanları var. Burada hansısa cəfəng ideoloji mövqelərin sərgilənməsi iqtisadi və siyasi baxımdan məntiqsizdir. İndi bu layihə daha real siyasətlə əhatə olunub. Ümid var ki, bu layihənin icrasında iştirak edən ölkələrin hamısı öz səmərəsini alacaq. Azərbaycanın iki ərazisinin arasında təhlükəsiz əlaqənin təminatının vacibliyi hamıya bəllidir. Bu məntiq Vaşinqtonda da qəbul olunub. Bu hədəfə nail olmaq üçün Azərbaycan öz siyasətini davam etdirir. Bununla paralel ümumi iqtisadi maraqlar da çox vacibdir. Bu layihənin icrasına qarşı çıxan tərəflərin arqumentlərinin zəifliyi göz qabağındadır.

***-Vaşinqtonda imzalanan sənədi qeyd etdiniz. Məlum olduğu kimi, gələn il Ermənistanda parlament seçkiləri keçiriləcək. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan üçün nə ilə nəticələnə bilər?***

-Hər bir siyasətdə iki məntiq var. Birinci məntiq bəllidir ki, qonşu ölkələrdən biri güclü, digəri zəif olur. Öz maraqlarını təmin etmək üçün ya güc tətbiq edir, ya da hədə-qorxu gəlir. Siyasətin digər üslubu da mövcuddur. Bu, qarşılıqlı maraqlar məsələsidir. Belə fikirlər olur ki, sabah Paşinyan dəyişsə, nə olacaq? Bəli, belə bir təhlükə var. Amma digər tərəfdən həm Azərbaycan, həm də Ermənistan bu münaqişənin həlli nəticəsində siyasi dividend olaraq onları siyasi əsaslardan iqtisadi əsaslara çevirə bilsə, bu sülh daha da cəlbedici olacaq. İndiki mərhələdə Azərbaycanın əsas siyasi xətti ondan ibarətdir ki, siyasi dividendləri iqtisadi, insanların rifahını yaxşılaşdıracaq dividendlərə çevirsin. Gələcəkdə Ermənistan və onların cəmiyyəti görsə ki, bu cür layihələr, həmçinin, qonşuluq siyasəti onlara fayda verir, bu, ona qarşı çıxmaq istəyən siyasi gücə çətinlik yaradacaq. Azərbaycanın post-konflikt siyasətinin təminatçıları iki amildir. Cənab Prezident öz çıxışında bunu qeyd edib. Biri gücdür, ikincisi isə xoş qonşuluq siyasətidir. Bizim məqsədimiz iki tərəfə də xeyir gətirən siyasətin dividendlərini Ermənistan cəmiyyətinə göstərməkdir. Bu da siyasətin ikinci vacib amilidir. Tramp layihəsi də indiki mərhələdə məhz cəlbedici faktorları Ermənistan cəmiyyətinə göstərməkdir. Ermənistan da bunun faydasını görəcək. Hazırda yol bağlıdırsa, orada nə var? İnkişaf, iqtisadi dirçəliş yoxdur. İnsanlar oradan çıxıb gedir, boş evlərin sayı çoxalır. Yəni, iqtisadiyyat ölü vəziyyətindədir. Amma bu və buna bənzər layihələr icra olunsa, demək orada insanlar daha firavan yaşayacaq.

***-Azərbaycan lideri müsahibədə Ermənistanla sülh sazişinin imzalanmasının şərtini açıqlayıb. Belə ki, Ermənistanın hazırkı konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan müddəa mövcuddur. Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarılsa, sülh sazişi də imzalanacaq...***

-Onlar bir çox sənədlər var ki, onları düzəltməlidirlər. Ermənistanda dövlət qurumlarının sülhə və qarşılıqlı qonşuluq siyasətinə zidd olan qərarlar çoxdur. Ümumiyyətlə, Ermənistan ideoloji baxımdan cəmiyyətin fikirlərini dəyişməlidir. Qonşu düşmən deyil. Burada proses böyükdür. Biz konstitusiya deyirik, amma konstitusiyanın dəyişməsi referendum yolu ilə baş verə bilər. Cəmiyyətdə istər-istəməz geniş siyasi diskussiya olmalıdır. Bu, cəmiyyət tərəfindən qəbul olunmalıdır. Orada revanşist ideologiyanın daşıyıcılarına qarşı ən təsirli siyasət olmalıdır. Bu və ya digər sənədə qol çəkilməsi o demək deyil ki, dərhal sülh bərqərar olacaq. İnsanların psixologiyası dəyişməlidir. Ermənistanın bizə qarşı işğalçı siyasəti tək hərbi sahədə deyil, iqtisadi, ideoloji, qanunvericilik və s. sahələrdə də baş verib. Onların ardıcıl şəkildə aradan götürülməsi Azərbaycanın məqsədidir. Bu yolda Azərbaycan həm güc, həm də qeyd etdiyim sülhün cəlbedici faktorlarını istifadə edir.

***-Hazırda Rusiya-Azərbaycan münasibətlərində müəyyən gərginlik var. Bu baxımdan Çində Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putin arasında görüşün keçirilməsi gözlənilirmi?***

-Hər bir siyasətin məqsədi var. Cənab Prezident müsahibədə bu mövzuya geniş diqqət yetirib. Bu bir növ Rusiya tərəfinə mesajdır. Bu böhrana aid Azərbaycanın mövqeyi açıqlanıb. İndi hər şey Rusiya tərəfindən asılıdır. Onlar hansı mövqeyi seçəcəklər. Bizim mövqeyimiz açıq deyilib. Biz görürük ki, Azərbaycana qarşı rəsmi səviyyədə sərgilənən münasibətdə guya hər şey yaxşıdır. Amma digər səviyyələrdə görürük ki, Azərbaycana qarşı düşmən təbliğatı baş verir. Onların güc strukturları azərbaycanlılara qarşı güc tətbiq edirlər. Azərbaycan öz mövqeyini açıqlayıb. İndi top Rusiya tərəfindədir. Əgər Rusiya tərəfindən hansısa fərqli mövqe sərgilənəcəksə, məntiqli olaraq bunun davamı görüş ola bilər. Əgər mövqe dəyişməyibsə, Azərbaycan tərəfi bununla bağlı addımlar atacaq.

***Anar Kəlbiyev***

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:42 PM Page 8



# Abbas Abbasovun Rusiyadakı biznesi çökür

## Baş nazirin sabiq müavininin şirkətləri niyə zərərlə işləməyə başlayıb? - Dovşan ticarəti ilə məşğul olan eks-məmur haqqında ilginc iddialar!

***Baş nazirin sabiq birinci müavini Abbas Abbasovun Rusiyadakı biznesi təhlükə qarşısındadır. Belə ki, 1992-2006-cı illərdə Azərbaycanın vitse-premyeri olmuş Abbasovun şirkətləri zərərlə işləməyə başlayıb. Bunu onun "Fermerskoe Xozayaistvo Timoxino" şirkəti ilə bağlı açıqlanan rəqəmlər də təsdiqləyir. Bir müddət öncə məlum olub ki, Rusiyada fəaliyyət göstərən həmin şirkət ötən ili 9 milyon 998 min rubl (127,5 min dollar) xalis zərərlə başa vurub.***



Mediada yayılan məlumatlardan aydın olur ki, Abbas Abbasov 2021-ci ilin iyul ayında Rusiyada "Fermerskoe Xozayaistvo Timoxino" (OOO "FERMERSKOE XOZƏYSTVO TİMOXİNO" - İNN: 5011036696) adlı şirkətin 10 faizlik payını satın alaraq, 3 təsisçidən biri olub.

"Fermerskoe Xozayaistvo Timoxino" şirkətinin digər təsisçiləri - Abbas Abbasovun biznes ortaqlarıdır. Söhbət Rusiya vətəndaşları Vladimir Kozyulin (65%-lik pay) və Teymuraz Xixinaşviliən (25%-lik pay) gedir.

Qeyd edək ki, "Fermerskoe Xozayaistvo Timoxino" şirkəti 9 may 2017-ci ildə dövlət qeydiyyatına alınıb. Şirkət Moskva vilayəti, Yeqoryevsk şəhəri, Timoxino kəndi, bina 100 ünvanında fəaliyyət göstərir.

Şirkətin fəaliyyət sahəsinə ət və ət məhsullarının istehsalı daxildir.

Məlumat üçün bildirək ki, 2023-cü illə müqayisədə ötən il şirkətin ümumi gəlirləri 44,3% və ya 9,3 milyon rubl artsa da, xalis zərəri də 45% və ya 3,1 milyon rubl artaraq 10 milyon rubl olub.

Onu da deyək ki, jurnalist Cavanşir Həsənlinin ötən il yazdığına görə, 74 yaşlı Abbas Abbasov hazırda Moskvada dovşan təsərrüfatı ilə məşğuldur: "O bir vaxtlar Azərbaycanda siyasi proseslərə nüfuz etmək istəyən keçmiş "Milyarderlər İttifaqı"nın başçısı olub, 2007-ci ildən Rusiya paytaxtında maliyyə, sığorta və pensiya xidmətləri göstərən "İşgüzar Əməkdaşlıq" Fondunun rəhbəridir. 2021-ci ilin iyulun 9-dan isə 10 faizlik payla Moskvada "Timoxino Fermer Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçilərindən biridir".

O da bildirilir ki, həmin şirkətin hüquqi ünvanı Moskva vilayətinin Yraeqorovs şəhəri, Timoxino kəndi göstərilir. Təsnifata görə fermer təsərrüfatı dovşan əti istehsalı ilə məşğuldur. Müəssisənin internet səhifəsində (https://timokhino.ru/) qeyd olunur ki, Abbasova və ortaqlarına məxsus təsərrüfatın qablaşdırdığı məhsullar Moskvanın Bolşaya Çeryomuşkinskaya küçəsindəki RİO Ticarət Mərkəzində (Buxta pavilyonu) topdan satılır. "TimoxinoFermer Təsərrüfatı" üzərindən Abbas Abbasov və ortaqları 2021-ci ildə Rusiyada topdan ət və ət məhsulları satışı ilə məşğul olan "Pol'Za EDY" LLC-ni də təsis edib. Onların təsərrüfat üzərindən təsis etdiyi digər şirkət isə heyvandarlıq təsərrüfatı ilə məşğul olan "Xoldinq Mirnıy" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Xatırladaq ki, Abbas Abbasov Rusiyada yaşayır və orada biznesla məşğul olur. Lakin bir neçə il əvvəl onun bu ölkənin iqtisadi gələcəyi barədə pessimist düşünməyə başlayaraq Türkiyəyə də sərmayə yatırdığı, burada müxtəlif obyektlər alıb fəaliyyətə keçdiyi deyilir. Onun qardaş ölkədəki biznesini isə oğlu, sabiq deputat Aydın Abbasovun idarə etdiyinə dair məlumatlar var. Görünür, sabiq vitse-premyer Rusiya ilə bağlı proqnozlarında haqlı çıxıb və onun bu ölkədəki biznesi zərərlə işləməyə başlayıb.

Yeri gəlmişkən qeyd edək ki, Baş nazirin sabiq müavini vaxtilə "AST Telman" kimi tanınan qalmaqallı iş adamı, artıq xeyli dərəcədə müflisləşmiş Telman İsmayılovun biznes ortağı olub. Burada haşiyə çıxıb bildirək ki, Abbas Abbasov Azərbaycandakı vəzifəsindən uzaqlaşdırılıb Moskvaya köçəndən sonra İsmayılov ona özünün "AST" şirkətində vitse-prezident postu vermişdi. Lakin həmin təyinatdan sonra nəinki T.İsmayılova daha geniş imkanlar yaradıldı, əksinə, ona qarşı Rusiya hakimiyyətindən təzyiqlər başladı. "AST Telman"ın "Çerkizovsk" bazarı bağlandı, biznesinə əngəllər yaradıldı və nəhayət, sıxışdırılıb Rusiyanın biznes-elitasından çıxarıldı. Bu dəfə o, Abbasovun ciddi dəstəyi ilə o, Türkiyəyə yerləşdi, bu ölkənin vətəndaşlığını aldı və "Mardan Palace"ni tikdi. Lakin İsmayılovun Türkiyədəki biznesi də batdı, Baş nazirin sabiq müavini isə onu yarıyolda qoyub öz biznesinin hayına qalmağa başladı.

Qısası, indi "AST Telman" barədə keçmiş milyarder kimi danışılır, onun ağlasığmaz varidatından, nəhəng biznes imperiyasından hazırda çox az şey qalıb. Bu gün İsmayılovun adı müxtəlif qətl hadisələrində, cinayət işlərində hallanır.

Və belə görünür, artıq keçmiş şəriki kimi Abbas Abbasovun da biznesi üzü enişə getməkdədir.

***Toğrul Əliyev***

# "Hazırda Cənubi Qafqaz regionu yeni inkişaf mərhələsindədir" - Millət vəkili



***Hazırda Cənubi Qafqaz regionu yeni inkişaf mərhələsindədir. Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması da bunu deməyə əsas verir. Yeni inkişaf mərhələsinin müəllifi isə Azərbaycan dövləti və Prezidentidir.***

"Unikal" xəbər verir ki, bu fikirləri azertac-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.

O bildirib ki, beynəlxalq münasibətlər sistemində davam edən qeyri-müəyyənlik şəraitində Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizə davamlı nailiyyətlər qazandırır. Dövlətimizin başçısı "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində sülh prosesi, regional əməkdaşlıq imkanları və digər aktual məsələlər barədə geniş fikir bildirib. Prezident İlham Əliyev Ermənistanın 30 illik işğalçılıq siyasətinin nəticələri barədə məlumat verib və Azərbaycanın öz gücünə beynəlxalq miqyasda tanınmış ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdırıb. Avqustun 8-də Vaşinqtonda imzalanan sənədlər isə regionda sülh və əməkdaşlıq üçün böyük ümidlər yaradır. "Ümid edirəm ki, prosesə heç bir müdaxilə olmayacaq. Lakin yenə də məndə yüz faiz zəmanət yoxdur, çünki Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək. Həmçinin bilirik ki, onlar yeni konstitusiya layihəsi üzərində işləyirlər. Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər. Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb" - deyə dövlətimizin başçısı vurğulayıb. Yəni, razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Bu da Ermənistanın özü üçün ciddi problem yarada bilər. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Prezidentimizin dediyi kimi, əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik.

Milli Məclisin deputatının sözlərinə görə, dövlətimizin başçısı müsahibədə Zəngəzur dəhlizindən də ətraflı bəhs edib. Nəzərə alaq ki, müharibə bitəndən sonra Zəngəzur dəhlizinin açılması Azərbaycanın prinsipial şərtlərindən biri idi. Vətəndaşlarımız Azərbaycanın əsas hissəsi ilə Naxçıvana maneəsiz və təhlükəsiz gedib-gəlməlidirlər. Bunun üçün güclü təhlükəsizlik zəmanətləri olmalıdır. Beynəlxalq təhlükəsizlik zəmanətləri təmin edilməlidir. Prezident İlham Əliyev yalnız Ermənistanın verdiyi zəmanətlərin kifayət olmadığını qeyd edərək deyib: "Tramp administrasiyası bu qanuni narahatlığı doğru şəkildə qəbul etdi və bunun nəticəsində TRIPP ("Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu") meydana gəldi. Prezident Tramp Zəngəzur dəhlizinə öz adını verdikdən sonra əminəm ki, bu layihə çox yaxın zamanda reallaşacaq. Fiziki infrastrukturun, yəni, dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə cəmi 42 kilometrdir. Əgər biz tikməli olsaq, bir il ərzində tamamlayardıq. Ermənistan üçün isə bəlkə də daha bir neçə il lazım olacaq, çünki dəmir yolu tikintisi sahəsində bizim təcrübəmiz daha çoxdur".

Sevinc Fətəliyeva qeyd edib ki, proseslər müsbət yöndə davam edir. Bu isə qarşıda dayanan hədəflərə nail olacağımıza əsas verir.

# Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi Xankəndidə yerləşəcək

***Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi artıq Xankəndidə yerləşəcək.***

"Unikal"ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Eyni zamanda Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsi bundan sonra müvəqqəti olaraq Xankəndi şəhəri və Ağdərənin inzibati ərazilərində də yerli səviyyədə dövlət şəhərsalma nəzarətini həyata keçirəcək.

Qeyd edək ki, indiyə qədər Baş İdarə Bərdə şəhərində yerləşirdi.

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:42 PM Page 9





# Kağız sənəd tələb edən universitetlər - SİYAHI

***Bu gündən universitetlərə qəbul olan tələbələrin qeydiyyatı başlayıb. Mövcud qaydalara görə qeydiyyat yalnız Elm və Təhsil Nazirliyinin portal.edu.az platformasında elektron formada aparılmalıdır. Uzun müddət bu sahədə pərakəndəlik olduğundan ötən il ETN, İRİA və AzTU paralel qeydiyyatdan və kağızdan imtina ilə bağlı universitetlərə müraciət etmişdilər.***

"Unikal"ın məlumatına görə, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, ötən illə müqayisədə vəziyyət müsbət istiqamətdə xeyli dəyişib.

"Öndə gedən aparıcı universitetlərin böyük əksəriyyəti kağızdan və parallel qeydiyyatdan imtina ediblər. Hətta regionlarda olan universitetlərin də böyük əksəriyyəti qeydiyyatı yalnız Nazirliyin platformasında elektron formada aparılması haqqında elanlar verib. Bu universitetlərin rektorlarının səlahiyyət verdiyi əməkdaşlar yeni tələbələrlə bağlı bütün datanı Nazirliyin elektron sisteminə daxil olaraq bir anda əldə edə bilirlər. Amma təəssüf ki, hələ də paralel qeydiyyat aparan və kağız sənədlər tələb edən universitetlər var", - o qeyd edib.

O, parallel qeydiyyat aparan və kağız sənədlər tələb edən universitetlərin siyahısını təqdim edib:

1. Azərbaycan Dövlət Pedaqoji Universiteti (kağız formada sənədlər tələb edir)
2. Xəzər Universiteti (kağız formada sənədlər tələb edir)
3. Azərbaycan Memarlıq ve İnşaat Universiteti (kağız formada sənədlər tələb edir)
4. Azərbaycan Tibb Universiteti (kağız formada sənədlər tələb edir)
5. Azərbaycan Dillər Universiteti (kağız formada sənədlər tələb edir)
6. Qərbi Kaspi Universiteti (kağız formada sənədlər tələb edir)
7. Azərbaycan Dövlət Aqrar Universiteti (kağız formada sənədlər tələb edir)
8. Azərbaycan Turizm ve Menecment Universiteti (kağız formada sənədlər tələb edir)
9. Dövlət İdarəçilik Akademiyası (kağız formada sənədlər tələb edir)
10. Bakı Biznes Universiteti (kağız formada sənədlər tələb edir)
11. ADA Universiteti (3 pilləli qeydiyyat tələb olunur)

# Bakıda ictimai nəqliyyatda qiymət 1 manat olacaq?

***Son günlər sosial şəbəkələrdə və yerli mediada Bakıda ictimai nəqliyyatda gedişhaqqının artırılacağı ilə bağlı məlumatlar yayılır.***

"Unikal" xəbər verir ki, Nəqliyyat üzrə ekspert Azər Allahverdiyev Musavat.com-a açıqlamasında bildirib ki, tarif dəyişikliyi qaçılmaz ola bilər: "İctimai nəqliyyatda sərnişin daşınmasının maya dəyəri son illərdə əhəmiyyətli dərəcədə artıb. Bu artımı əsasən yanacaq, ehtiyat hissələri və işçi qüvvəsi xərclərinin bahalaşması şərtləndirir. Lakin nəzərə almaq lazımdır ki, qiymət artımı insanların sosial vəziyyətinə uyğun şəkildə həyata keçirilməlidir. Əks halda, sərnişinlər üçün əlavə yük olacaq".

Qeyd edək ki, 2023-cü ildən etibarən ictimai nəqliyyatda gedişhaqqı qiymətlərini Tarif Şurası yox, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tənzimləyir.

Xatırladaq ki, hazırda metroda gedişhaqqı 50 qəpik, paytaxtdakı avtobus marşrutlarında isə məsafədən asılı olaraq 50 qəpik-1 manat arası dəyişir.

# Monopolistlərdən ağlasığmaz bahalaşma

## Xaricdən gətirilən məhsulların idxal qiymətləri ilə satış qiyməti arasında uçurum var - Oxuduqca gözlərinə inanmayacaqsınız!

***Bu ilin yanvar-iyul aylarında Azərbaycana 1 milyard 477,8 milyon dollar dəyərində yeyinti məhsulları idxal olunub. "Yeni avaz" açıqlanan rəsmi məlumatlara istinadən xəbər verir ki, ötən ilin eyni dövrü ilə müqayisədə ərzaq məhsullarının idxalı 10% artıb.***

Belə ki, ötən ilin ilk 7 ayında xaricdən ölkəyə 1 milyard 342,6 milyon dollar dəyərində yeyinti məhsulları gətirilib. Ən çox idxal olunan məhsullar arasında dəyər baxımından meyvə-tərəvəz, miqdar baxımından isə buğda üstünlük təşkil edib.

Qeyd edək ki, bu ilin ilk 7 ayında Azərbaycana 248,5 min ton tərəvəz və meyvə idxal edilib, bunun gömrük dəyəri 191,5 milyon dollar olub. Nəticədə idxal olunan meyvətərəvəzin 1 kiloqramının orta qiyməti 1,30 manat təşkil edib.

Bundan başqa 646,3 min ton buğda ölkəyə gətirilib və dəyəri 140,1 milyon dollar olub. Bu zaman buğdanın 1 kiloqramının gömrük dəyəri 37 qəpiyə bərabər olub.

Həmçinin 55,1 milyon dollar dəyərinə 25,1 min ton ət idxal olunub. Bunun da 1 kiloqramının orta gömrük dəyəri 3,5 manat olub.

9,3 min ton süd və qaymaq idxalının dəyəri isə 15,7 milyon dollar olub və 1 kiloqram üçün qiymət 2,9 manat təşkil edib. 16,6 min ton kərə yağının idxalı üçün 113,6 milyon dollar ödənilib və 1 kiloqramın orta gömrük dəyəri 11,5 manat olub.

Eyni zamanda, 7,8 min ton çay idxalının dəyəri 47,6 milyon dollar (1 kiloqram üçün orta qiymət 11 manat), 35,5 min ton düyü idxalı 33,6 milyon dollar (1 kiloqramın gömrük dəyəri 1,6 manat), 88,6 min ton bitki mənşəli yağların gömrük dəyəri 137,1 milyon dollar (1 kiloqram üçün qiymət 2,6 manat) təşkil edib.

İndi isə gələk əsas məsələyə: yuxarıdakı idxal qiymətləri ilə Azərbaycandakı satış qiymətləri arasındakı uçurumu yəqin ki, hər biriniz aydın şəkildə gördünüz. Məsələn, 1 kiloqram ətin orta gömrük qiyməti 3,5 manat olduğu halda supermarketlərdə bu məhsulun qiyməti hazırda 15-16 manatdan başlayır. Bir sözlə, ortada ən azı 5 dəfə fərq var.

Yaxud, bitki mənşəli yağların 1 kiloqramı üçün gömrük dəyəri 2,6 manat olduğu halda həmin məhsulu supermarketlərdən hardasa üç dəfə baha ala bilərsiniz.

1 kiloqram kərə yağının orta gömrük dəyəri 11,5 manatdır, ancaq vətəndaşlar onu ən azı 9 manat baha qiymətə ala bilərlər.

Yuxarıda sadaladığımız fərqlər az qala idxal olunan bütün məhsullara aiddir.

Əlbəttə, başa düşürük ki, belə məhsullar ölkənin gömrük qapısından daxil olduqdan sonra rüsum və vergilərə cəlb olunur. Müxtəlif mal nomenklaturası üzrə gömrük dərəcələri müəyyənləşib ki, bu rüsum və ödənişlər gömrük orqanının müvafiq elektron resurslarında öz əksini tapıb. Bundan başqa, daşınma-logistika, anbarsaxlanma, yol vergisinə cəlb olunma, tədarükçü şirkətin xərcləri və s. məhsulun qiymətinin üzərinə əlavə olunur. Məsələn, kərə yağının deyək ki, Gürcüstanın Poti limanından Bakıya gətirilməsi üçün hər tonuna görə ən azı 120-150 dollar nəqliyyat xərci sərf edilir. Yağın ticarət şəbəkələrinə paylanması, marketinqi, əməkhaqqı, sosial sığorta, elektrik enerjisi və s. xərclər



məhsulun son qiymət əmsalına təsir edir. Bütün bu proseslər nəticəsində məhsulun gömrük və topdansatış anbarlarından market və mağazalara çatdırılması və pərakəndə satışa çıxarıldıqdan sonra mənfəət dəyəri üçün marja, yəni qazanc faizi əlavə edilir. Beləliklə, kərə yağının idxal orta qiyməti ilə son satış qiyməti arasında müəyyən qədər əlavə dəyər yaranır. Nəticədə malın son orta satış qiyməti yüksəlir. Bu obyektiv gerçəklikdir. Lakin...

Lakin həmin obyektiv gerçəklik fonunda belə, bir çox iqtisadçı ekspertlər də qeyd edirlər ki, Azərbaycanda bəzi məhsullarla bağlı idxal orta qiyməti ilə son satış qiyməti arasındakı bir neçə dəfəlik fərq anlaşılmazdır.

Digər tərəfdən, əksər postsovet ölkələri, ya da qonşu ölkələr ilə müqayisələr idxal olunan ət, kərə yağı, gigyenik vasitələr, dərmanlar və s. kimi məhsulların Azərbaycanda daha yüksək qiymətə satıldığını göstərir. Və belədə haqlı olaraq sual yaranır: bəyəm həmin ölkələrdə idxal orta qiyməti ilə son satış qiyməti arasında müəyyən qədər əlavə dəyər yaranmırmı? Niyə həmin əlavə dəyər bizdə daha yüksəkdir?

Fikrimizcə, dərin düşünməyə ehtiyac yoxdur. Problemin kökündə ilk növbədə monopolistlər və onların bir çox hallarda süni qiymət artımları dayanır. Son illərdə inhisarçılıqla mübarizə tədbirlərinin gücləndiyini inkar etmək olmaz, lakin təəssüf ki, effektiv nəticə hələlik müşahidə edilmir.

***Toğrul Əliyev***

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:42 PM Page 10



# Daha bir icra başçısının tenderləri tənqid hədəfində

## Qəbələ Rayon İcra Hakimiyyətinin satınalma müsabiqələrinin çoxunu niyə bir şirkət udur?

***Qəbələ Rayon İcra Hakimiyyəti "ATF" MMC ilə satınalma müqaviləsi imzalayıb. "Qaynarinfo"nun xəbərinə görə, müqavilədə Qəbələ şəhər Heydər Əliyev prospektində yolun əsaslı təmir işlərinin satınalınması nəzərdə tutulur. Satınalma proseduru açıq tender üsulu ilə həyata keçirilib. Yolun əsaslı təmirinə görə şirkətə 945 753,01 manat ödəniləcək.***

"ATF" MMC mediada "tender kralı" kimi təqdim edilib. Şirkət 23 dekabr 2003-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 AZN olan şirkətin hüquqi ünvanı Göyçay rayonunun Çayarxı kəndində yerləşir. MMC-nin qanuni təmsilçisi Muradov Təbriz Əzim oğludur.



"ATF" MMC Azad, Təbriz və Fəxrəddin Muradov qardaşlarına məxsusdur. Şirkətin adı onların adlarının baş hərflərinin birləşməsidir.

Bu arada xatırlatmaq yerinə düşər ki, Fəxrədin Muradov 2018-ci ildə hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb. Həmin vaxt Baş Prokurorluğun yaydığı məlumatda bildirilirdi ki, Fəxrəddin Muradova Cinayət Məcəlləsinin 192-ci (qanunsuz sahibkarlıq), 247-ci (işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və digər maddələrlə ittiham irəli sürülüb. Bu işlə bağlı araşdırmalar zamanı məlum olub ki, "ATF" şirkəti dövlətə 361 000 manat ziyan vurub. "Maraqlıdır ki, şirkətin qalib gəldiyi bütün tenderlər yol təmiri ilə bağlıdır. Haqqında heç bir məlumat olmayan, maddi-texniki bazasının vəziyyətinin hansı səviyyədə olduğu bilinməyən bir şirkətin eyni zamanda bir neçə rayonda yolların təmirini necə həyata keçirəcəyi aydın deyil" - hələ 2023-cü ildə yerli KİV yazırdı.

Qayıdaq "ATF" MMC-nin Qəbələdəki fəaliyyətinə, az qala, yerli tender kralına çevrilməsinə... Araşdırmalardan belə görünür ki, adı çəkilən şirkət bundan əvvəl də Qəbələ Rayon İcra Hakimiyyətinin tenderlərinin qalibinə çevrilib. Məsələn, ötən il rayonun Heydər Əliyev prospektində yolun əsaslı təmir işlərinin satın alınması ilə bağlı "ATF" MMC ilə 465 446,28 manatlıq, 2023-cü ildə Qəbələ şəhərinin küçə və dalanlarına asfalt örtüyünün çəkilməsi işlərinin satın alınması ilə bağlı isə 698 650,45 manatlıq satınalma müqaviləsi bağlayıb.

Dövlət satınalmalarının vahid elektron portalında yerləşdirilən məlumatlardan aydın olur ki, Qəbələdə yol təmiri və abadlıq işləri ilə bağlı keçirilən tenderlərin qalibi əsasən "ATF" MMC olur.

Bu yaxınlarda isə Qəbələ Rayon İcra Hakimiyyəti daha bir tenderə yekun vurmuşdu. Qurumun Qəbələ şəhər İnzibati Ərazi Nümayəndəliyi üç küçədə əsaslı təmir işlərini həyata keçirəcək. "Belə ki, Qəbələ şəhər H.Əliyev prospekti, Nizami və H.Aslanov küçələrində aparılacaq əsaslı təmir işlərinin satınalınması ATF MMC-yə həvalə olunub. Bu məqsədlə şirkətə 404 min 580 manat ödəniləcək. "Tribunainfo"nun apardığı araşdırma zamanı məlum olmuşdu ki, ötən il tərəflər - ATF MMC ilə Qəbələ İcra Hakimiyyəti arasında iki tender anlaşması əldə olunub. Onlardan biri 14 oktyabrda baş tutub. Açıq mənbələrdə bildirilir ki, Qəbələ İcra Hakimiyyəti sözügedən şirkətə Qəbələ şəhər Heydər Əliyev prospektində yolların əsaslı təmir işlərinin satınalınmasını həvalə edib. Buna görə, 387 min 497 manat pul ödəyib. İkinci tender isə ötən ilin 21 oktyabrında keçirilib. Yenə də Heydər Əliyev prospektinin təmirini nəzərdə tutan bu razılaşmaya əsasən İcra Hakimiyyəti ATF MMC-yə 465 min 446 manat ödəniş edib. Avqustdakı üçüncü tenderin ardından belə çıxır ki, Qəbələ Rayon İcra Hakimiyyəti eyni yolu eyni şirkətə bir ildə üçüncü dəfə təmir etdirir.

Bütün bunlar sözügedən rayonun rəhbərliyi ilə adıçəkilən şirkət arasındakı tender sövdələşmələrinə dair müəyyən şübhələr yaradıb.

Xatırladaq ki, Qəbələ rayonuna 2010-cu ildən Səbuhi Abdullayev rəhbərlik edir. O da maraqlıdır ki, nəinki açıq internet resurslarında, hətta rəhbəri olduğu İcra Hakimiyyətinin rəsmi saytında belə onun tərcümeyi-halına dair hər hansı informasiyaya rast gəlinmir. Saytda yalnız Abdullayevin icra başçısı təyin olunmasına dair Sərəncam yerləşdirilib. Səbuhi müəllim barədə bilinən bircə odur ki, hazırda 52 yaşı var və bunun 15 ilini Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində keçirib...

Mətbuatda yayılan məlumatlardan onun geniş biznesə malik olduğu görünür. Bildirilir ki, Səbuhi Abdullayev bir sıra mağazaların, şadlıq sarayının, restoranın sahibidir. Belə iddialar indiyədək qarşı tərəfdən nə təsdiq, nə də təkzib edilib.

*Sənan Mirzə*

# Heydər Məmmədov MDB Baş prokurorlarının müavinlərinin görüşündə



***Azərbaycan Baş Prokurorluğunun nümayəndə heyəti MDB-yə üzv dövlətlərin Baş prokurorlarının müavinlərinin görüşündə iştirak edib.***

Bu barədə "Unikal"a Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Baş prokurorun müavini Heydər Məmmədov və Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Səbuhi Alıyev Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində təşkil olunan MDB-yə üzv dövlətlərin Baş prokurorlarının müavinlərinin görüşündə iştirak edib.

MDB-nin və bir sıra dövlət qurumlarının yüksək vəzifəli təmsilçilərinin iştirakı ilə keçirilən tədbir çərçivəsində hüquq-mühafizə sahəsində qarşılıqlı əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri, transsərhəd cinayətkarlığa qarşı birgə mübarizənin təşkili, həmçinin regional və beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

Görüşdə Heydər Məmmədov çıxış edərək, Koordinasiya Şurası çərçivəsində həyata keçirilən islahatların əhəmiyyətini, prokurorluqlar arasında qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində mövcud əməkdaşlıq təcrübəsini, habelə beynəlxalq və regional təşkilatlarda Azərbaycanın fəallığını diqqətə çatdırıb.

Baş prokurorun müavini, o cümlədən Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə ölkəmizdə bir sıra nüfuzlu beynəlxalq tədbirlərin - Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik iclası, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "Gücləndirilmiş İqlim Fəaliyyəti üçün Hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" adlı yüksək səviyyəli plenar iclası və UNODC-nin GlobE şəbəkəsinin plenar toplantısının təşkil olunduğunu qeyd edib.

Səfər çərçivəsində, həmçinin Heydər Məmmədov MDB-yə üzv dövlətlərin Baş Prokurorluqlarının nümayəndə heyətləri ilə görüşlər keçirib.

# Naxçıvanda Maliyyə Nazirliyinə aparat rəhbəri təyin olunub



***Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə aparat rəhbəri təyin olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı Naxçıvan MR maliyyə naziri Həsən İsmayılov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Hacıyev Nurlan Rauf oğlu Nazirliyin aparat rəhbəri vəzifəsinə təyin edilib. Qeyd edək ki, 40 yaşlı N.Hacıyev 2017-ci ildən Maliyyə Nazirliyinin Xəzinə şöbəsində sektor müdiri və şöbə müdiri vəzifələrində çalışıb.

# Yanğın olan DOST Mərkəzi müvəqqəti bağlandı



***Ötən gün Abşeron rayonu, Xırdalan şəhərində yerləşən Abşeron Dost Mərkəzinin inzibati binasında baş verən yanğınla əlaqədar mərkəz müvəqqəti olaraq fəaliyyət göstərməyəcək.***

"Unikal" xəbər verir ki, bu barədə DOST Agentliyi məlumat yayıb. Bildirilib ki, bu, Mərkəzdə ehtiyac yaranan kiçik təmir işlərinin aparılması ilə əlaqədardır.

Qeyd edilib ki, ötən gün saat 16:30 radələrində Abşeron DOST Mərkəzində baş verən yanğın Fövqəladə Hallar Nazirliyinin Yanğından Mühafizə Xidməti tərəfindən operativ qaydada söndürülüb: "Hadisə yalnız bir otaqda baş verib və Mərkəzi əhatə etməyib. Vətəndaşlar Bakı şəhərində yerləşən digər DOST mərkəzlərinə müraciət edə bilərlər".

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:43 PM Page 11



# Keçmiş məcburi köçkünlər üçün 68 tədbir keçirilib



***İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilən “Əhalinin geri qayıdışı, ərazilərdə dayanıqlı icmaların yaradılması və onların yeni yaşayış şəraitinə adaptasiya olunması üçün reinteqrasiya tədbirlərinin və gəlirgətirən fəaliyyətlərin təşkili” layihəsi üzrə maarifləndirici tədbirlərin icrası davam edir.***

”Unikal” xəbər evrir kİ, ötən ay respublikanın müxtəlif şəhər və rayonlarında keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı ərazilərdə hər birində 40 nəfər olmaqla, 68 tədbir keçirilib.

Tədbirlər üç əsas istiqaməti əhatə edib. Bunlar, hədəf icmaların və benefisiar alt-hədəf qrupların yarıstruktur müsahibələr, seminarlar, müzakirələr yolu ilə ehtiyaclarının müəyyən edilməsi, icma iştirakçılığı, gender mövzusunda seminarların təşkili və hədəf icmaların dayanıqlığının təmin edilməsi, gücləndirilməsi üçün vacib olan icma əsaslı strukturların yaradılmasıdır.

Dövlət Komitəsinin bu istiqamətdə tədbirləri davam etdiriləcək.

# İçərişəhərdəki ağacların qeydiyyatı və nömrələnməsinə başlanıldı

***İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə layihəsi çərçivəsində İçərişəhərdəki bütün ağacların qeydiyyatı və nömrələnməsinə start verilib.***

Bu barədə ”Unikal”a ”İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib.

Bildirilib ki, hər bir ağacın üzərinə xüsusi nömrələnmiş inventar lövhələri vurulur, onların üzərində ağacın kodu və onun elektron uçot vərəqinə keçid imkanı yaradan QR-kod yerləşdirilir:

”İnventarlaşdırma nəticəsində İçərişəhərin bütün yaşıllıqları ”Şəhər yaşıllıqlarının reyestri” informasiya sisteminə daxil ediləcək. Proses tam zərərsiz üsulla aparılır və inventar lövhələri ətraf mühit təsirlərinə davamlı materialdan hazırlanır”.

Məlumata əsasən, layihənin məqsədi İçərişəhərin yaşıllıqlarını qorumaq, ekoloji mühiti yaxşılaşdırmaq və gələcək nəsillərə yaşıl irs ötürməkdir.

# Tələbə krediti ilə bağlı müraciətlərin vaxtı açıqlandı

***Ödənişli əsaslarla ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunmuş abituriyentlər 2025-2026-cı tədris ilinin payız semestri üçün 28 avqust - 8 sentyabr tarixlərində portal.edu.az platforması üzərindən təhsil qeydiyyatını həyata keçirdikləri zaman, paralel olaraq www.e-ttkf.edu.az portalı vasitəsilə təhsil tələbə krediti üçün müraciət edə bilərlər.***

Bu barədə ”Unikal”a Təhsil Tələbə Krediti Fondundan məlumat verilib.

Bildirilib ki, bu dövrdə müraciət sayının çoxluğunu nəzərə alaraq, təhsil tələbə kreditlərinə müraciət edən şəxslərə operativ dəstək göstərmək məqsədilə Fond tərəfindən yardım masası yaradılıb. TTK müraciəti zamanı hər hansı çətinliklə qarşılaşan şəxslər hər iş günü saat 09:00-dan 18:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun küçəsi 34 ünvanında yerləşən ofisimizə yaxınlaşaraq əməkdaşlarımızdan dəstək ala bilərlər.

Eyni zamanda, tələbələrin kredit müraciətlərinə dəstək üçün Fondun çağrı mərkəzi (146-5), WhatsApp və birbaşa əlaqə nömrələri vasitəsilə də müraciətlərinizə operativ dəstək göstərilir.

# Mərkəzi Bankın cəzalandırdığı şirkətlə bağlı ilginc məlumatlar

## Cəmi 10 manat kapitalla yaradılıb, limitdən artıq dollar satırmış, vəzifəli şəxsi isə vaxtilə iri məbləğdə cərimələnibmiş - “Delta Kapital” bir aylığa bağlandı




***Azərbaycanda valyuta satışına nəzarət tədbirləri sərt şəkildə davam edir. Tədbirlər əsasən yeni lisenziya almış valyutadəyişmə məntəqələrini əhatə edir.***

Bu çərçivədə Azərbaycan Mərkəzi Bankı valyuta dəyişmə məntəqəsi olan “Delta Capital” MMC-nin lisenziyasını 1 ay müddətində dayandırıb. Mərkəzi Bankın yayıdığı məlumata görə, bu qərar “Delta Capital”ın həm əvvəllər verilmiş icrası məcburi göstərişə əməl etməməsi, həm də digər pozuntulara görə verilib.Belə ki, Mərkəzi Bank bildirir ki, şirkət «Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası”nın 4.10-cu və 5.2-ci bəndlərinin tələblərini pozub. Bu bəndlərdə tələb olunur ki, valyuta dəyişmə məntəqəsində daimi mühafizə olmalı və eləcə də buradakı mühafizə sistemləri 24 saat ərzində mərkəzləşdirilmiş polis mühafizə pultuna qoşulmalıdır. İş saatlarında isə burada silahlı mühafizə olmalıdır. Qeyri-iş saatlarında isə kassada 20 min manatdan artıq pul varsa məntəqədə silahlı mühafizə olmalıdır. Qaydanın 5.2-ci maddəsində isə - hansı ki, pozuntu olduğu bildirilir - deyilir ki, valyutadəyişmə məntəqəsində xəzinədarın yaxasında ad-soyad-ata adı, şəkli və vəzifəsi olan nişan olmalıdır. Eyni zamanda xəzinədar öz səlahiyyətini başqa şəxsə verməməli və məntəqəyə kənar şəxsi buraxmamalıdır.

Lakin AMB-nin məlumatından aydın olur ki, “Delta Capital”dakı əsas pozuntular valyuta ilə əməliyyatların limiti keçməsi və qeydə alınmamasına aiddir. Rəsmi məlumatda deyilir ki, valyutadəyişmə məntəqəsi “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikası Qanununun 16-1.1-ci maddəsini pozub. Burada deyilir ki, Azərbaycan Mərkəzi Bankı valyuta əməliyyatlarına nəzarət məqsədilə bütün valyuta əməliyyatları barədə məlumatların toplanıldığı vahid informasiya sistemini yaradır. Valyuta nəzarəti agentləri isə (yəni valyutadəyişmə məntəqələri), apardıqları valyuta əməliyyatları barədə məlumatları bu informasiya sisteminə daxil etməli və valyuta nəzarəti məqsədləri üçün həmin sistemdən istifadə etməlidirlər. AMB-nin məlumatından belə aydınlaşır ki, adı çəkilən şirkət bu sistemdən lazım olduğu kimi istifadə etməyib.

Əsas problem isə müştərilərə satılıb alınan valyutanın həcmi ilə bağlı olub. AMB bildirir ki, “Delta Capital” şirkəti “Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası”nın 3.4-cü, 3.6-cı, 4.7-ci, 6.3-cü və 7.3-cü bəndlərinin tələblərini təkrar olaraq pozub. 3.4-cü maddədə deyilir ki, valyuta dəyişmə məntəqəsi nağd xarici valyutanın bir müştəriyə 500 dollardan artıq satanda və ya 10 min dollardan artıq alanda şəxsiyyəti təsdiq edən sənəd tələb olunmalıdır. Burada bəzi əməliyyatlar sənədsiz olub. Qaydaların 3.6-cı maddəsində isə deyilir ki, valyuta dəyişmə məntəqəsi bir nəfərə gün ərzində 20 min manatdan artıq xarici valyuta sata bilməz. Söhbət dollardan gedirsə, bu indiki məzənnə ilə 11 760 dollar edir. Məntəqə isə böyük ehtimalla müştəriyə daha çox dollar satıb və limiti keçib.

“Delta Kapital” başqa qaydaları da pozub və bütün bunların fonunda onun fəaliyyəti 1 ay müddətinə dayandırılıb.

Araşdırmamıza görə, adı çəkilən şirkətə 2022-ci ildə valyuta mübadiləsi ilə məşğul olmaq üçün lisenziya verilib. Şirkət özü isə bundan bir il əvvəl - 2021-ci ilin martında cəmi 10 manat nizamnamə kapitalı ilə yaradılıb və yalnız üç il sonra - Mərkəzi Bankın qoyduğu kapital tələbini yerinə yetirib: nizamnamə kapitalını kəskin artıraraq 600 000 manata çatdırıb. Həmin vaxt bu məbləğ ”Delta Capital”a Bakıda bir valyuta dəyişmə məntəqəsi ilə fəaliyyət göstərməyə imkan verirdi. Paytaxtda 2-ci məntəqəni açmaq üçün isə şirkət kapitalını 50 % artıraraq 900 min manata çatdırmalı idi.

Ötən il Mərkəzi Bank “Delta Capital” MMC-nin adı açıqlanmayan vəzifəli şəxsinin inzibati məsuliyyətə cəlb olunması barədə qərar qəbul edib. Belə ki, AMB tərəfindən aparılan cari nəzarət prosesləri çərçivəsində “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununun (Qanun) 16-1.1-ci maddəsinin, habelə “Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması və valyuta mübadiləsi fəaliyyətinə nəzarət Qaydası”nın 3.4, 4.5, 4.7, 4.14, 6.1, 6.5-ci bəndlərinin tələblərinin pozulması səbəbilə İnzibati Xətalar Məcəlləsinin 430.3 və 439-1-ci maddələrinə müvafiq olaraq, ”Delta Capital” MMC-nin vəzifəli şəxsi 2 886 (iki min səkkiz yüz səksən altı) manat məbləğində cərimələnib.

Qeyd edək ki, Azərbaycanda valyuta mübadiləsi fəaliyyəti ilə məşğul olmağa icazə verilən MMC-lərin son vaxtlar ciddi nöqsanlara yol verdiyi və bunun müqabilində Mərkəzi Bank tərəfindən sərt şəkildə cəzalandırıldığı müşahidə edilir.

***Sənan Mirzə***

**5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kəlbəcərə Böyük Qayıdış

## İlham Əsgərov: "İnsanların Kəlbəcərə qayıdış inamı onun sayəsində gerçəkləşdi"

***Bir neçə gün öncə dövlət başçısı "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcərdə mənzillərin açarlarını buraya köçəcək ilk sakinlərə təqdim etdi. Beləcə, işğaldan azad olunan digər rayonlarımız kimi Kəlbəcər də kompleks şəkildə sürətlə yenidən qurulur. Ermənilərin vaxtilə vandallığa məruz qoyduqları, yandırdıqları, təbiətinə dağ çəkdikləri Kəlbəcərdə artıq yeni həyat başlayır.***

Oraya ilk köçən sakinlərdən biri də prezidentlə Kəlbəcərdə görüşən sakin İlham Əsgərovdur.

"Unikal" qəzeti Kəlbəcərə ilk köçən sakin İlham Əsgərovla söhbət zamanı onun xatirələrini, prezidentlə görüşünün təəssüratlarını öyrənib.

Bildirib ki, Kəlbəcəri 32 yaşında tərk edib. 64 yaşda isə doğma yurduna geri dönüb.

"Kəlbəcərə qayıdış sözlə təsvir ediləcək bir hiss deyil. Onu ancaq yaşamaq lazımdır. Bu hissi bizə yaşadan şəhidlərimizə rəhmət diləyirəm. Ali Baş Komandanımız Kəlbəcəri qansız-qadasız geri aldı. İnsanların Kəlbəcərə qayıdış inamı onun sayəsində gerçəkləşdi.Prezidentlə adaşam. Onunla görüşdə gözəl bir şeir də dedim. O şeiri qələbədən sonra yazmışdım. Son bəndini prezidentimizə dedim. Mənim və ailəmin güzəranı ilə maraqlandı. Dərzi olduğumu dedim. Soruşdu ki, bəs Kəlbəcərdə harada işləyəcəksən? Dedim inşallah işləyəcəm. Soruşdu ki, ailədə tək işləyən sənsənmi? Dedim ki, oğlum İstisu zavodunda mühəndis işləyir. Oğlumu da çağırıb söhbət etdi. Dedi sənin istehsal etdiyin suları prezidentlərə hədiyyə göndərirəm. Bu görüş çox gözəl təəssüratlarla yadda qaldı. Bizim bu yurda qayıdışımız böyük hadisədir. Kəlbəcəri anam və üç uşağım, həyat yoldaşımla tərk etmişdim. Anam rəhmətə getsə də, bu günü görməsə də, 8 nəvəmlə doğma yurda qayıtdım. Bizə 4 otaqlı ev verdilər. Mənim arzum budur ki, daha o torpaqlarda müharibə olmasın. Hamı öz yurdunda yaşasın", -deyə Kəlbəcər sakini bildirib.



## Ruslan Mustafayev: "İlk mağazamızı Kəlbəcərdə açdıq, İlk qonağımız da elə prezidentimiz oldu"

Digər həmsöhbət olduğumuz sakin isə Kəlbəcərdə "Balland - Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın sahibi Ruslan Mustafayevdir.

Ruslan Mustafayev deyir ki, bu dəfə prezidentlə mağazalarının açılışında görüşüblər.

"Kəlbəcərə qayıdış çox gözəl bir hissdir. Tanrı bizə yenidən evimizin işığını yandırmağı nəsib etdi. Bu, sözün əsl mənasında Böyük bir qayıdışdır. Biz təkcə evimizə qayıtmadıq. Kəlbəcərdə qoyub gəldiyimiz bütün dəyərlərimizə qayıtdıq, sahibləndik. Bizim dədə-babadan işimiz arıçılıq olub. Kəlbəcər işğaldan azad olunan kimi biz arılarımızı Kəlbəcərə köçürdük. Orada prezidentimiz bizə qonaq oldu, tövsiyyə etdi ki, Kəlbəcər balını brendləşdirək. Biz də onun tövsiyyəsi ilə balımızı balland markası ilə satışa çıxardıq. İlk mağazamızı da elə Kəlbəcərdə açdıq. İlk qonağımız prezidentimiz oldu. Möhtəşəm bir görüş keçdi. Öz doğma yurduna qayıtmaq doğurdan da böyük xöşbəxtlikdir. İndi Kəlbəcərin sanki hər gülü-çiçəyi gülür, sevinir. Babalarımızın ruhu şaddır. Çünki biz yurdumuza qayıtmışıq. Bu Böyük Qayıdışa görə bütün kəlbəcərliləri təbrik edirəm",- sakin öz sevincini bölüşərək bildirib.

Qeyd edək ki, avqustun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərində 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər.

Prezident bildirib ki, birinci mərhələdə "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq.

Dövlət başçısı vurğulayıb ki, Vətən müharibəsi başa çatanda Kəlbəcər, Laçın, Ağdamın böyük hissəsi hələ işğal altında idi. Ancaq biz kapitulyasiya aktı nəticəsində Ermənistanı məcbur etdik ki, bu bölgələri bizə qaytarsın və bunu etməyə məcbur olub. Yəni, Kəlbəcər bir güllə atılmadan azad edildi.

Prezident Kəlbəcərdə quruculuq işlərindən danışaraq burada tətbiq edilən memarlığın İsveçrə layihəsi olduğunu söyləyib.

"İsveçrədəki şəhərlərə tam uyğundur. Bəli, həm memarlıq, həm də daxildəki dizayn baxımından. Bilirsiniz, İsveçrə dünyada insanın həyat keyfiyyətinə görə birinci yerdədir. Ona görə, biz Kəlbəcər üçün bunu seçmişik",- deyə prezident söyləyib.

Onun sözlərinə görə, Kəlbəcərin yol infrastrukturu da yenidən qurulub.

"Kəlbəcər ölkəmizin ən gözəl rayonlarından biridir. Hər dəfə buraya gələndə Mehriban xanım və mən maşından izləyirik və bir-birimizə deyirik ki, nə gözəl diyardır, nə gözəl mənzərədir. Bunun dünyada tayı-bərabəri yoxdur. Amma siz də yaxşı bilirsiniz ki, Kəlbəcər həmişə ucqar rayon sayılırdı, çünki yollar yox idi. Yüz il bundan əvvəl, ümumiyyətlə, yol yox idi, ancaq atlarla hərəkət etmək mümkün idi. Ondan sonra sovet hakimiyyəti dövründə çəkilmiş o yollar da çox təhlükəli idi, ensiz idi. Biz Mehriban xanımla işğaldan sonra ilk dəfə Kəlbəcərə, təbii ki, Ömər aşırımından gəldik. O vaxt o yol da demək olar ki, yox idi, bir cığır idi və həm də çox təhlükəli idi. Amma o qədər əzəmətli mənzərə ilə üzləşdik ki, çətinlik heç özünü hiss etdirmirdi. Göygöldən gələndə Ömər aşırımından hər dəfə aşağıya baxarkən bu təbiətə valeh olurduq. Eyni zamanda, mən o vaxt dərhal göstəriş verdim ki, biz mütləq Gəncə istiqamətindən Kəlbəcərə müasir yol çəkməliyik. Çünki bilirsiniz ki, o vaxt biz Ağdərə-Kəlbəcər yolundan istifadə edə bilmirdik. Ona görə dərhal işlər başlandı və bu gün biz Mehriban xanımla Kəlbəcərə gələndə daha Ömər aşırımından yox, ilk dəfə olaraq tuneldən keçdik. Bu da uzunluğuna görə Avropada beşinci tuneldir. Təxminən 12 kilometr uzunluğunda ən böyük tunel. Amma yol boyunca beş tunel artıq var. Ən uzun tuneli də biz bu gün açdıq. Düzdür, hələ yəqin ki, yeddi-səkkiz ay vaxt lazım olacaq ki, onun içərisi də tam düzəlsin. Ondan sonra Kəlbəcərdən Gəncəyə, Göygölə getmək çox rahat olacaq. Yəni, biz Kəlbəcəri ölkəmizin qərb bölgəsi ilə birləşdiririk.

Digər yol, - onu da biz indi inşa edirik, - Ağdərə-Kəlbəcər yoludur. O da Naftalandan gələn yoldur. O yol olub, işğal dövründə işğalçılar istifadə ediblər. Mən o yol ilə də gəlmişəm. O da çox narahat yoldur. Kələ-kötür yoldur. Ona görə biz o yolu da genişləndiririk, düzəldirik.

Üçüncü istiqamət isə Kəlbəcər-Laçın yoludur. Mən o vaxt Göygöldən Kəlbəcərə, Kəlbəcərdən ta Laçına qədər getmişdim. Mən ömrümdə bunun kimi təhlükəli yol görməmişdim və siz də o yolu yəqin ki, xatırlayırsınız. İndi biz o yolu da dördzolaqlı tunellərlə, körpülərlə tamamilə yeni görkəmə salırıq. Laçının Qorçu kəndində beynəlxalq hava limanı da istifadəyə verilib. Biz o yerin seçilməsində də çətinlik çəkirdik. Çünki Kəlbəcərdə və Laçında bir dənə də düz yer tapa bilməmişdik ki, orada uçuş-enmə zolağı inşa edilsin. Bir dənə də düz yer yoxdur. Amma mən istəyirdim ki, aeroport həm Kəlbəcərə, həm Laçın şəhərinə yaxın olsun. Ona görə o yer seçildi. Dedilər ki, burada da bunu etmək mümkün deyil, gərək dağları kəsək. Dedim kəsmək lazımdırsa, kəsək. Əminəm ki, bu aeroport sayəsində bura gələnlər üçün çox gözəl bir turizm mərkəzi olacaq. Yəni, üç istiqamətdən yol, - Gəncə, Laçın, hətta Zəngilandan ta Kəlbəcərə qədər, bir də Naftalan, Ağdərə, Sərsəng, Kəlbəcər, - üç tərəfdən rahat əlaqələndirmə olacaq və əlbəttə ki, bu, bölgənin canlandırılması üçün böyük imkanlar yaradacaq: iş adamları, hotellər, turizm kompleksləri. Yəni, planlarımız çox böyükdür. Mən artıq bəyan etmişdim ki, biz kanat yollarını da çəkməyə başlayırıq. Birincisi, Laçında. Siz Laçın şəhərini də yaxşı tanıyırsınız, Həkəri çayından da Laçının yuxarı məhəlləsinə məsafə böyükdür. Həm də hündürlük fərqi də böyükdür. Laçın şəhərində kanat yolu yəqin ki, gələn il hazır olacaq. İkinci kanat yolu isə Xankəndi-Şuşadır, onun da təməlini qoyduq. Üçüncü kanat yolu da Kəlbəcərdə olacaq. Onun da yerinə baxmışıq. Bura çox gözəl mənzərəli yerlərdir, həm də cənnətdir. Amma buranı cənnət etmək üçün gərək bax, belə gözəl şərait olsun. Bunu da biz edirik. Ona görə bir daha sizi təbrik edirəm. Xoşbəxt yaşayın, cansağlığı arzulayıram. Sağ olun", İlham Əliyev sakinlərlə söhbətində bildirib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

32_27 IYUI-QARA.qxd 8/28/2025 11:43 PM Page 13






## "Aztelekom" yaxın zamanda 10G və 50G PON texnologiyalarının tətbiqinə başlayacaq

***"AZCON Holding" şirkətlərindən olan "Aztelekom"un baş direktor vəzifəsini icra edən Həsən Ömərov və şirkətin Şəbəkə texnologiyaları departamentinin rəhbəri Şəhriyar Ağayev "Telecom Review" saytına müsahibə veriblər.***

"Unikal" xəbər verir ki, H.Ömərov öz müsahibəsində şirkətin cari nailiyyətləri və gələcək planları ilə bağlı sualları cavablandırıb. O, Ümumdünya Genişzolaqlı Əlaqə Assosiasiyası (WBBA) tərəfindən verilən "Gigacity Champion" mükafatının "Aztelekom"un rəqəmsal transformasiya öhdəliyinə sadiqliyinin və uzunmüddətli vizyonunun təsdiqi olduğunu vurğulayıb.

10G PON (Giqabit Tutumlu Passiv Optik Şəbəkə) texnologiyasının Azərbaycanda tətbiqi ilə bağlı sualı cavablandıran Şəhriyar Ağayev bildirib ki, "Aztelekom"un bu istiqamətdə gördüyü işlər şirkətin davamlı rəqəmsal infrastrukturun qurulmasına dair strateji öhdəliyini əks etdirir. Ş.Ağayev, həmçinin qeyd edib ki, 10G və 50G PON kimi texnologiyalar bizə yaxın gələcəkdə ultrasürətli, etibarlı və genişzolaqlı sürət təqdim etməyə imkan verəcək və yaxın zamanda həm ev, həm də biznes təsərrüfatlarının istifadəçiləri üçün 500 Mbit/s və daha yüksəksürətli internetlə təmin edilmə imkanı yaradacaq.

Məlumat üçün bildirək ki, "Gigacity Champion" mükafatı son bir il ərzində "Aztelekom"un təltif olunduğu üçüncü beynəlxalq mükafatdır.

Qeyd edək ki, 10G və 50G PON texnologiyaları optik şəbəkələrdə müvafiq olaraq 10 Gbps və 50 Gbps sürətlə internet və məlumat ötürülməsini təmin edən yeni nəsil genişzolaqlı rabitə sistemləridir. Bu texnologiyalar xüsusilə yüksək istifadəçi tələbatı olan bölgələrdə daha sürətli, sabit və yüksəktutumlu bağlantılar təqdim etmək üçün istifadə olunur.

## I sinfə qəbulla bağlı 39 minə yaxın sorğu yerləşdirilib

***Avqustun 28-nə (saat 11:00) olan məlumata əsasən, paytaxt məktəblərinin birinci sinfinə 38 814 uşaq üçün elektron sistem (https://mektebeqebul.edu.az/) vasitəsilə sorğu yerləşdirilib.***

Bu barədə "Unikal"a Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.

Qeyd edək ki, 2025-2026-cı tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə elektron qeydiyyat sentyabrın 12-nə qədər davam edəcək. www.mektebeqebul.edu.az sistemi vasitəsilə özü elektron qeydiyyatdan keçə bilməyən və ya internet resurslarına çıxış imkanı olmayan vətəndaşlar aidiyyəti ərazi üzrə fəaliyyət göstərən ən yaxın alternativ qeydiyyat mərkəzinə (https://baku.edu.gov.az/az/page/276), eləcə də 5, 6 və 7 saylı "ASAN xidmət" mərkəzlərinin təhsil xidmətləri bölməsinə müraciət edə bilərlər.

Vətəndaşlara alternativ qeydiyyat mərkəzlərində həftənin I-V günləri saat 10:00-dan 17:00-a qədər xidmət göstərilir. Valideyn alternativ qeydiyyat mərkəzinə müraciət edərkən övladını özü ilə aparmasına ehtiyac yoxdur.

Həmçinin valideynlər (və ya qanuni nümayəndələr) digər bütün hallarla bağlı şəxsi kabinetlərindəki "Əlaqə" bölməsi və "WhatsApp" vasitəsilə (070-996-76-63, 070-996-36-62, 070-996-46-68) də müraciət ünvanlaya bilərlər.

# Təcavüzkar müharibənin Ermənistan tərəfindən aparıldığı bir daha təsdiqləndi

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 28-də davam etdirilib.***



"Unikal" xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesə ilk dəfə qatılan zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə iclası təqsirləndirilən şəxs Arkadi Qukasyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələr və ona aid digər sənədlərin elan olunması ilə davam etdirilib.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan ibtidai istintaq zamanı ifadəsində bildirib ki, qondarma rejimin "prezidenti" kimi istənilən "vəzifəyə təyinat"la bağlı qərar qəbul etmək səlahiyyətinə malik olub. Yalnız "müdafiə naziri" vəzifəsinə "təyinat" və "vəzifədən azad etmə" Ermənistanın Müdafiə Nazirliyi və Ermənistan prezidenti ilə razılaşdırıldıqdan sonra baş tutub.

Bölgəyə silah-sursatı yalnız Ermənistan Müdafiə Nazirliyinin göndərdiyini deyən A.Qukasyan ifadəsində vurğulayıb ki, qondarma rejimin "müdafiə nazirliyi" faktiki olaraq Ermənistanın Müdafiə Nazirliyinin tərkib hissəsi kimi çıxış edib.

Bildirilib ki, Ermənistandan silah-sursat və digər bütün təminatlar Gorus-Laçın-Xankəndi, Vardenis-Kəlbəcər-Ağdərə-Xankəndi avtomobil yollarından istifadə edilməklə bölgəyə gətirilib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın ibtidai istintaqdakı ifadəsində bildirilib ki, I Qarabağ müharibəsində və ondan sonrakı dövrdə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində hərbi qüvvələr Ermənistandan gətirilərək yerləşdirilib. Aprel döyüşləri zamanı da Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşən Ermənistana tabe olan, oradan maliyyələşən hərbi birləşmələr olub. Silah-sursat, hərbi texnika və canlı qüvvə dəstəyi də həmişəki kimi Ermənistandan təmin edilib.

A.Harutyunyan 2020-ci ildə 44 günlük müharibə zamanı əsgərlərə ruh yüksəkliyi vermək üçün hərbi kazarmalara və döyüş yerlərinə getdiyini, lakin bütün hərbi əmrləri, göstərişləri Ermənistanın Müdafiə Nazirliyinin və baş qərargah rəisinin verdiyini deyib. Bildirib ki, həmin vaxt baş qərargah rəisi Onik Qosparyan olub və 44 günlük müharibə zamanı bütün rəhbər göstərişlər, əmrlər, tapşırıqlar onun tərəfindən verilib.

"Toçka-U", "Smerç", "Skad" və digər bu tipli raket kompleksləri qondarma rejimin "müdafiə ordusunun" hərbi arsenalında olmayıb. 44 günlük müharibə zamanı iki "Smerç" raket kompleksi Ermənistandan gətirilərək Əsgəranda yerləşdirilib. Raket kompleksini idarə edənlər və şəxsi heyət də Ermənistan hərbi qüvvələrinə aid olub və oradan gətirilib.

Arayik Harutyunyan ibtidai istintaqa ifadəsində qeyd edib ki, Tərtər və Bərdə rayonlarında, Gəncə və Mingəçevir şəhərlərində, Goranboy, Beyləqan və digər rayonların ərazilərində yerləşən, mülki əhalinin sıx məskunlaşdığı ərazilərə, mülki obyektlərə, müdafiə olunmayan ərazilərə, hətta Bakı şəhərinin də yerləşdiyi Abşeron yarımadası istiqamətində ballistik raketlərin atılmasına dair əmrlər Ermənistandan verilib.

Bildirilib ki, 2020-ci il oktyabrın 4-də paylaşdığı "Mənim əmrimlə müdafiə ordusu bu gün Gəncə şəhərində yerləşən hərbi obyektləri məhv etmək üçün bir neçə raket zərbəsi endirib. İndidən mən dinc əhali arasında günahsız qurbanların olmaması üçün atəşkəs əmri vermişəm. Düşmən ondan nümunə götürmədiyi təqdirdə, düşmənin ordusunu parçalayaraq, sıradan çıxararaq bərabər və güclü zərbələr endirməkdə davam edəcəyik. Biz hərəkətlərimizdə sona qədər qərarlıyıq" kimi yazının mətni Ermənistan Respublikasının Müdafiə Nazirliyinin baş qərargah rəisi Onik Qasporyanın təklifi ilə hazırlanaraq ona verilib, o da həmin mətni öz mətbuat katibi Vahram Poqasyana təqdim edərək, onun səhifəsində yerləşdirməyi tapşırıb.

Qeyd edib ki, baş verən proseslərə artıq heç bir təsir imkanının qalmadığını gördüyü üçün 2023-cü il avqustun 31-də "istefa verərək" "prezidentlikdən" imtina edib.

Məhkəmə iclası təqsirləndirilən şəxs Arayik Harutyunyanın mətbuatda və sosial şəbəkələrdə paylaşdığı məlumatlar və ifadələrinin elanı ilə davam edib, fotogörüntülər təqdim olunub.

Sonra məhkəmə iclasında təqsirləndirilən şəxs Bako Sahakyanın ibtidai istintaqa verdiyi ifadəsi elan olunub.

İfadəsinə əsasən qeyd olunub ki, 1988-ci ildən "Azadlıq hərəkatı"nın öncüllərindən biri kimi tanınıb, 1990-cı ildə "özünümüdafiə qüvvələri"nə qoşulub, 1992-1993-cü illərdə qondarma rejimin "özünümüdafiə komitəsi"nin komandir müavini, 1993-1995-ci illərdə qondarma rejimin "müdafiə ordusu"nun "arxa qərargahının komandiri", 1995-1996-cı illərdə "müdafiə ordusu komandirinin xarici əlaqələr üzrə müavini", 1996-1997-ci illərdə 10-cu dağlıq piyada diviziyası komandirinin müavini, 1997-1999-cu illərdə Ermənistan Respublikasının daxili işlər və milli təhlükəsizlik nazirinin köməkçisi, 1999-2001-ci illərdə qondarma rejimin "daxili işlər naziri", 2001-2007-ci illərdə "milli təhlükəsizlik xidmətinin direktoru" vəzifələrində çalışıb. 2007-2020-ci illərdə qondarma rejimin "prezidenti" olub, həmçinin "dövlət naziri vəzifəsi"ni icra edib.

Həmçinin ifadəsində qeyd edib ki, Birinci Qarabağ müharibəsi zamanı aparılan bütün hərbi əməliyyatlara "özünümüdafiə qüvvələri komitəsinin", daha sonra "müdafiə ordusunun sədri" olan Serj Sarkisyan, Ermənistanın müdafiə nazirləri olmuş Vazgen Sarkisyan və Vazgen Manukyan rəhbərlik ediblər. Həmin dövrdə ümumi rəhbərliyi isə "Dövlət Müdafiə Komitəsi"nin sədri olmuş Robert Köçəryan və Ermənistanın ozamankı prezidenti Levon Ter-Petrosyan edib.

Məhkəmə prosesi avqustun 29-da davam etdiriləcək.

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:43 PM Page 14



# Boş qalan yerlərə ixtisas seçimi başladı

***Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi başlanıb.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi avqustun 28-dən 2 sentyabr saat 23:59-dək aparılır.

Ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin boş qalan plan yerlərinə və kolleclərə qəbul üçün keçirilən müsabiqədə iştirak etmək hüquqları yoxdur.

İxtisas seçmək hüququ olan abituriyent ali təhsil müəssisələrinin və orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu seçib, onları eservices.dim.gov.az/erizebak/ixtisas2 internet ünvanında yerləşən "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edərək təsdiqləməlidir. Abituriyent (həmçinin subbakalavr) ali təhsil müəssisələrinin ixtisas kodlarını seçərkən dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd edir. Əgər abituriyent hər hansı bir ixtisas üzrə həm dövlət sifarişi, həm də ödənişli əsaslarla olan yerlərin müsabiqəsində iştirak etmək istəyirsə, bu halda həmin ixtisasın kodunu ərizəyə iki dəfə daxil etməli və birinin qarşısında dövlət sifarişi əsasında, digərinin qarşısında isə ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd etməlidir.

Ali təhsil müəssisələrinin boş qalan (vakant) plan yerlərinin siyahısı "Abituriyent" jurnalının 7-ci sayında dərc olunub. Orta ixtisas məktəblərinin qəbul aparılan ixtisasları isə "Abituriyent" jurnalının 5?ci sayında dərc olunub.

**Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə ixtisas qrupları üzrə müsabiqə şərtləri aşağıdakı kimidir:**

I ixtisas qrupu üzrə müsabiqəyə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

**Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:**

- "Riyaziyyat", "Fizika" və ixtisasları üzrə müsabiqəyə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır;

- Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti və Sumqayıt Dövlət Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır.

**Aşağıda qeyd olunan ixtisas üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150dən və imtahanın ikinci mərhələsi üzrə balı 50dən az olmayan abituriyentlər iştirak edə bilərlər:**

- Şərabçılıq.

II ixtisas qrupu üzrə müsabiqəyə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

**Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:**

- Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40 dan az olmayan abituriyentlər buraxılır.

III ixtisas qrupu müsabiqəyə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

**Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:**

- Dövlət ali təhsil müəssisələrinin "Filologiya (ingilis dil və ədəbiyyat üzrə) ixtisasının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40dan az olmayan abituriyentlər buraxılır.

IV ixtisas qrupu müsabiqəyə ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılır.

**Müəyyən ixtisaslar üzrə tətbiq edilən tələblər qismən fərqlidir:**

- Dövlət ali təhsil müəssisələri-nin (Sumqayıt Dövlət Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılır;

- Aşağıda qeyd olunan ixtisaslar üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150dən və imtahanın ikinci mərhələsi üzrə balı 50dən az olmayan abituriyentlər iştirak edə bilərlər:

Bağçılıq və tərəvəzçilik;

Su bioehtiyatları və akvakultura.

V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar (kodunun qarşısında iki ulduz (**) qeyd olunan ixtisaslar) üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı əsasında aparılır.



### Subbakalavrların müsabiqədə iştirakı

Subbakalavrlar da ixtisas seçimində iştirak etmək üçün 2025-cü il avqustun 28-dən sentyabrın 2-dək qəbul olmaq istədikləri ixtisasların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər

Subbakalavrlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları "Abituriyent" jurnalının 7-ci sayından seçə bilərlər.

Elektron ixtisas seçimi ərizəsini təsdiqləməyən abituriyentlər (subbakalavrlar) müsabiqəyə buraxılmayacaqlar.

Qəbul elanının tam mətni ilə "Abituriyent" jurnalının 7 nömrəli buraxlışında tanış ola bilərsiniz.

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçiminə qəbul (buraxılış) imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir) abituriyentlər buraxılırlar.

"Fiziki tərbiyə müəllimliyi" ixtisasının müsabiqəsinə qəbul (buraxılış) imtahanında topladıqları ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) digər bütün xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə isə ümumi balı 40-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılırlar.

# Goranboy rayonu üzrə taxıl biçininin gedişatı

***Dənli və dənli paxlalı bitkilərin kütləvi biçini artıq başa çatmışdır.***

2025-ci il avqust ayının 26-na olan operativ məlumata əsasən payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilər üzrə biçilməsi nəzərdə tutulmuş 18793,8 hektar sahə biçilərək məhsulu yığılmışdır. Sahələrdən 63000,8 ton məhsul toplanmış, məhsuldarlıq 33,5 sentnerə bərabər olmuşdur.

Məhsulun 43393,0 tonunu və yaxud 68,9 faizini buğda, 19419,2 tonunu (30,8 faizini) buğda, 188,6 tonunu (0,3 faizini) isə digər dənli və dənli paxlalı bitkiçilik məhsulları təşkil etmişdir.

| Göstəricinin adı | Əkin sahəsi, hektar | Yığılmış məhsul, ton | Məhsuldarlıq, sen/ha |
|---|---|---|---|
| Arpa | 12974,5 | 43393,0 | 33,4 |
| Buğda | 5738,5 | 19419,2 | 33,8 |
| Digər dənli və dənli paxlalı bitkilər | 80,8 | 188,6 | 23,3 |

***Goranboy Rayon Statistika İdarəsi***

# Samux rayonunda intensiv meyvə bağlarının sahəsi genişlənir

***Son illərdə kənd təsərrüfatının əksər sahələri kimi meyvəçilik sahəsində də inkişaf nəzərə çarpır. Müasir meyvəçilik intensiv yolla inkişaf etdirilir, tez məhsula düşən, bol və keyfiyyətli məhsul verən sortların sahələri genişləndirilir. İntensiv üsulla becərilən meyvə bağlarının salınması Samux rayonunda da geniş vüsət almışdır.***



Samux Rayon Statistika İdarəsindən verilən məlumata görə rayonda 1 avqust 2025-ci il tarixinə 2372,7 hektar meyvə bağları olmuşdur. Mövcud olan meyvə bağlarının 234,5 hektarı və ya 9,8 faizi intensiv üsulla becərilən sahələrdir ki, bunun da 57,0 hektarını yeni salınmış bağlar təşkil etmişdir. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə intensiv üsulla becərilən meyvə bağlarının sahəsi 25 hektar və ya 11,9 faiz artmışdır.

İntensiv üsulla becərilən meyvə bağların 10,0 hekratı alma, 10,0 hektarı armud, 14,3 hektarı xurma, 7,0 hektarı heyva, 41,0 hektarı ərik, 118,3 hektarı şaftalı, 6,3 hektarı gavalı, 2,0 hektarı alça, 25,6 hektarı gilas bağları olmuşdur.

1 avqust 2025 ci il tarixinə intensiv üsulla becərilən meyvə bağlarından 1319,6 ton məhsul yığılmışdır. Məhsul yığımı davam edir.

***Samux Rayon Statistika İdarəsi***

# İtkin düşən 4 nəfər tapıldı

***İtkin düşmüş kimi axtarışı aparılan 4 nəfər tapılıb.***

DİN-dən "Unikal"a verilən məlumata görə, avqustun 27-də polis əməkdaşlarının keçirdikləri tədbirlərlə ailə üzvlərini məlumatlandırmadan yaşadığı ünvanı tərk etdiyinə görə itkin düşmüş kimi axtarışı aparılan 4 nəfər tapılaraq aidiyyəti üzrə təhvil verilib.

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:43 PM Page 15





# CHP sədri haqqında istintaq başladıldı

***Ankara Respublika Baş Prokurorluğu CHP sədri Özgür Özəl haqqında İstanbulun Baş prokuroru Akın Gürlekin ünvanına söylədiyi fikirlərə görə istintaqa başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə mətbuatı yazıb.

Baş Prokurorluq Özəlin CHP-nin Beyoğlu mitinqindəki çıxışında Gürlekin ünvanına işlətdiyi sözlərdən sonra hərəkətə keçib.

Özəl barəsində "dövlət məmurunu təhqir etmək" və "təhdid" ittihamları ilə istintaqa başlanıb.

*Ağarza Elçinoğlu*

# Zelenski ABŞ-a xanım səfir təyin etdi

***Ukrayna prezidenti Volodimir Zelenski Olqa Stefanişinanın ABŞ-a səfir təyin edilməsi haqqında fərman imzalayıb.***

Bu barədə Ukrayna KİV-i məlumat yayıb.

"Mən səfirliyimizin işini yeniləmək, ən əsası isə Vaşinqtonla bütün razılaşmaları - prezident Trampla razılaşmalarımızı və hər şeydən əvvəl müdafiə sektorunun işini tam şəkildə yerinə yetirmək üçün əsas vəzifələri müəyyən etmişəm", - deyə Zelenski qeyd edib.

# "99 il icarə hələlik real deyil" - Mirzoyan

***"Ermənistan Respublikası ərazisində infrastrukturun keçəcəyi, o cümlədən Azərbaycan qatarlarının istifadə edəcəyi torpaq Ermənistan Respublikasına məxsus olacaq".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan deyib.

"99 il haqqında söhbətin hələlik reallıqla əlaqəsi yoxdur. Torpaq mülkiyyəti mübahisə edilə bilməz", - nazir bildirib.

Xatırladaq ki, ABŞ prezidenti avqustun 8-də keçirdiyi mətbuat konfransında ABŞ-nin yolu 99 il müddətinə icarəyə götürdüyünü açıqlamışdı.

*Ağarza Elçinoğlu*

# "Bu, daha çox qəzet uydurmasına oxşayır" - Peskov

***Almaniyada ABŞ-ın silah tədarükü marşrutları üzərində Rusiyanın kəşfiyyat dronlarının uçması barədə xəbərləri uydurmadır.***

Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

"Xeyr, bu xəbərləri görməmişik, amma bunu təsəvvür etmək çətindir, çünki o halda almanlar bunu görər və yəqin ki, susmazdılar. Bu, daha çox qəzet uydurmasına oxşayır", - Peskov vurğulayıb.

Qeyd edək ki, "The New York Times" (NYT) Rusiyanın ABŞ və müttəfiqlərinin Şərqi Almaniya ərazisində hərbi yüklərin daşımaları üçün istifadə etdiyi marşrutlar üzərində kəşfiyyat dronları uçurduğuna dair məqalə yayıb.

# Paşinyan 9 noyabr üçtərəfli bəyanatın qüvvədən düşdüyünü açıqladı



***"Azərbaycan Prezidenti də müsahibəsində Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülhün bərqərar olduğunu qeyd edib. Üstəlik, sülhün bərqərar olduğunu qeyd etdikdə, tərəflərin artıq bir-biri ilə heç bir probleminin olmadığını qeyd etmirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasından sonra jurnalistlərlə keçirdiyi brifinqdə deyib.

Paşinyan qeyd edib ki, dövlətlərarası münasibətlərin qurulması və inkişafı dinamik prosesdir və tərəflərin ümumi mənzərədə öz əksini tapmayan razılaşmaları və fikir ayrılıqları var: "Mən mesajımda dedim ki, sülhün qayğıya ehtiyacı var və qayğı davamlı olmalıdır. Bəli, sülh quruldu və qurulan sülh getdikcə daha institusionallaşmalıdır. Mənim qeydlərimdən sonra heç nə dəyişməyib və təxmin edim ki, dəyişməyəcək".

Baş nazir eksklav-anklavlar məsələsinin həll edilməli olduğunu bildirib: "Qarşılıqlı münasibətlərdə belə ərazilər, xüsusən Tavuş bölgəsində, eləcə də digər bölgələrdə mövcuddur. Hətta mən və Ermənistan hökuməti, eləcə də Ermənistanın heç bir hökuməti eksklav-anklavlar məsələsindən imtina edə bilmərik, çünki bizdə Artsvaşen (Başkənd, Gədəbəy) var.

Onların suveren ərazilər olduğunu vurğulamağınıza gəlincə, bütün ərazilər suverendir və 1991-ci il Almatı Bəyannaməsində qeyd olunur ki, Sovet Ermənistanı bütün inzibati ərazisi və sərhədləri ilə müstəqil Ermənistana, Sovet Azərbaycanı isə inzibati sərhədləri ilə müstəqil Azərbaycana çevrilir.

Yəni ilk dəfə 2022-ci il oktyabrın 6-da Praqada qeydə alınan müqavilə belədir və biz onun institusionallaşması yolundayıq və bu yolda davam edəcəyik".

Paşinyan açıqlamasında 9 noyabr üçtərəfli bəyanatın qüvvədən düşdüyünü bildirib: "Noyabrın 9-na qayıtmağa ümumiyyətlə ehtiyac yoxdur. 9 noyabr 9 noyabrda qaldı".

Onun sözlərinə görə, Vaşinqtonda əldə olunan razılaşmalarla bağlı müzakirələr hələlik yoxdur: "Danışıqlar sentyabrda başlayacaq. Hazırda 99 il də daxil olmaqla, bizim heç bir sabit sazişimiz yoxdur.

Qiymətləndirməm ondan ibarətdir ki, avqustun 8-də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında sülh bərqərar oldu, müxalifət hələ ayın 9, 10, 11, 12-də şokda idi, 13-də isə sülhə qarşı genişmiqyaslı hücuma keçdi".

O, ölkədəki müxalifəti bədbəxt adlandırıb: "Çünki sərhəddə heç bir əsgər öldürülmür, başa düşürsünüz? Əsgər öldürülmür, bu da onları bədbəxt edir".

Baş nazir həmçinin deyib ki, yaranmış sülhü qorumağı özünə borc bilir: "Bunun yolu Ermənistan vətəndaşları ilə mümkün qədər çox ünsiyyətdə olmaqdan keçir. Mən o sülhün müəllifi deyiləm, o sülhün müəllifi 2018-ci ilin may ayından hər gün hibrid təbliğat hücumlarına məruz qalan Ermənistan vətəndaşlarıdır. Amma xalqımız daha dözümlüdür. Bu sülhə görə xalqa təşəkkür etmək istəyirəm, onlar bunu qazanıblar".

*Ağarza Elçinoğlu*

# Arkadi Qukasyanın cinayət işi üzrə verdiyi ifadələr elan edilib

***Avqustun 28-də Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Arkadi Qukasyanın cinayət işi üzrə ibtidai istintaq zamanı verdiyi ifadələr və ona aid digər sənədlər elan edilib.***



"Unikal" xəbər verir ki, təqsirləndirilən şəxs Arkadi Qukasyan ibtidai istintaq zamanı ifadəsində bildirib ki, qondarma rejimin "prezidenti" kimi istənilən "vəzifəyə təyinat"la bağlı qərar qəbul etmək səlahiyyətinə malik olub. Yalnız "müdafiə naziri vəzifəsinə "təyinat" və "vəzifədən azad etmə" Ermənistanın Müdafiə Nazirliyi və Ermənistan prezidenti ilə razılaşdırıldıqdan sonra baş tutub.

Bölgəyə silah-sursatı yalnız Ermənistan Müdafiə Nazirliyinin göndərdiyini deyən A.Qukasyan ifadəsində vurğulayıb ki, qondarma rejimin "müdafiə nazirliyi" faktiki olaraq Ermənistanın Müdafiə Nazirliyinin tərkib hissəsi kimi çıxış edib.

Bildirilib ki, Ermənistandan silah-sursat və digər bütün təminatlar Gorus-Laçın-Xankəndi, Vardenis-Kəlbəcər-Ağdərə-Xankəndi avtomobil yollarından istifadə edilməklə bölgəyə gətirilib.

Qeyd edək ki, Ermənistanın hərbi tecavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən tecavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

32_27 IYUl-QARA.qxd 8/28/2025 11:44 PM Page 16



# "Qarabağ"ın qələbəsi özünə və 11 klubumuza bu qədər sərvət qazandırdı



***"Qarabağ"ın UEFA Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanmasından fayda götürən təkcə Ağdam klubu özü olmayacaq.***

"Unikal" Qol.az-a istinadən xəbər verir ki, qitənin ali futbol qurumu ÇL-in əsas mərhələsinə düşən klubların təmsil etdiyi ölkələrin yarışda iştirak edə bilməyən digər komandalarına həmrəylik məqsədi ilə maddi yardım ayıracaq.

Konkret Azərbaycana gəlincə, Misli Premyer Liqasında yarışan 12 klubdan 11-nin ("Qarabağ" istisna olmaqla) hər birinə ümumən 800 min avronun ödəniləcəyi gözlənilir. Yardım iki mərhələdə klubların hesabına köçürüləcək: əvvəlcə 550 min, daha sonra 250 min avro (bugünkü məzənnə ilə 1 milyon 579 min manat). Lakin bu məbləğ son olmaya da bilər.

Məsələ burasındadır ki, "Qarabağ"ın ÇL-in əsas mərhələsində uğurlu çıxış edərsə, həmin klublar üçün mükafat bir qədər də arta bilər.

Ağdam klubunun özünə gəlincə, "Qarabağ" təkcə ÇL-in Liqa mərhələsinə düşdüyünə görə, 18 milyon 620 min avronu artıq təmin edib. UEFA tərəfindən təsnifat mərhələsində iştiraka görə əlavə bonusların ödəniləcəyi də gözlənilir. Liqa mərhələsində isə bir qələbəyə görə 2 milyon 100 min, heç-heçə üçün isə 700 min avro mükafat nəzərdə tutulub.

# Rus idmançıdan sonra iş adamı da İstanbulda yoxa çıxdı

***Avqustun 24-də Bosfor boğazında keçirilən qitələrarası üzgüçülük yarışı zamanı 29 yaşlı rusiyalı üzgüçü Nikolay Andreeviç Svečnikovun itkin düşməsindən sonra, Belarus İdman Həmrəyliyi Fondunun Beynəlxalq Departmentinin rəhbəri Anatol Kotau da İstanbulda yoxa çıxıb.***



"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, avqustun 21-də şəxsi işləri üçün Istanbula gedən Kotaudan bir həftədir ki, heç bir məlumat yoxdur.

Onun İstanbula endikdən sonra həyat yoldaşına mesaj göndərdiyi bildirilir. Daha sonra Kotau ilə əlaqə itib.

İş adamının hava limanından başlayaraq getdiyi marşrutun görüntüləri hazırda polis tərəfindən ardıcıllıqla izlənilir.

***Ağarza Elçinoğlu***

# "Fənərbaxça" Çempionlar Liqasından kənarda qaldı - Nəticələr

***Otən gecə UEFA Çempionlar Liqasında əsas mərhələyə adlayan son 4 komanda müəyyənləşib.***

Pley-offun cavab görüşləri çərçivəsində Azərbaycan təmsilçisi "Qarabağ" Bakıda "Ferensvaroş"la qarşılaşıb və 2:3 hesabı ilə uduzub. Ağdam klubu iilk matçda 3:1 hesablı qələbə qazandığı üçün tarixində 2-ci dəfə ÇL-in əsas mərhələsinə yüksəlib.

Türkiyə "Fənərbaxça"sı isə "Benfika"ya məğlub olaraq mübarizəni dayandırıb.

**27 avqust**

"Qarabağ" (Azərbaycan) - "Ferensvaroş" (Macarıstan) - 2:3
İlk oyun - 3:1
"Kopenhagen" (Danimarka) - "Bazel" (İsveçrə) - 2:0
İlk oyun - 1:1
"Benfika" (Portuqaliya) - "Fənərbaxça" (Türkiyə) - 1:0
İlk oyun - 0:0
"Brügge" (Belçika) - "Reyncers" (Şotlandiya) - 6:0
İlk oyun - 3:1
"Kayrat" (Qazaxıstan) - "Seltik" (Şotlandiya) - 0:0, Penaltilər seriyası - 3:2
İlk oyun - 0:0
"Pafos" (Kipr) - "Srvena Zvezda" (Serbiya) - 1:1



İlk oyun - 2:1
"Şturm" (Avstriya) - "Budo/Qlimt" (Norveç) - 2:1
İlk oyun - 0:5

# "Çelsi"nin futbolçusu "Milan"da




***"Milan" heyətinə yeni oyunçu qatmağa hazırlaşır.***

QOL.az xəbər verir ki, bu barədə insayder Fabritsio Romano məlumat yayıb.

İtaliya təmsilçisi "Çelsi"dən Kristofer Nkunku ilə razılaşıb. A seriyasi klubu bu keçidə görə 35 milyon avro ödəyəcək. Tərəflərin tezliklə 5 illik müqavilə imzalayacaqları bildirilib.

Xatırladaq ki, Nkunku 2023-cü ilin yayından "Çelsi"də oynayır.




# Çempionlar Liqasının favoritləri arasında "Qarabağ" da yer aldı

***"Goal" nəşri 2025/2026 mövsümündə Çempionlar Liqasının qalibi ola biləcək komandaların reytinqini açıqlayıb.***

"Unikal" xəbər verir ki, mənbənin versiyasına görə, siyahıya Fransa təmsilçisi PSJ başçılıq edir.

İlk beşlikdə həmçinin "Barselona", Madrid "Real"ı, London "Arsenal"ı və "Liverpul" da yer alıb. Qazaxıstanın "Kayrat"ı 35-ci, Azərbaycanın "Qarabağ"ı isə 36-cı pillədə qərarlaşıb.

**TOP-10-u təqdim edirik:**

1.PSJ
2."Barselona"
3."Arsenal"
4."Liverpul"
5."Real" (Madrid)
6."Bavariya"
7."Çelsi"
8."Mançester Siti"
9."İnter"
10."Tottenhem"

Xatırladaq ki, Çempionlar Liqasının hazırkı qalibi PSJ-dir. Parislilər ötən mövsümün finalında "İnter"i 5:0 hesabı ilə darmadağın etmişdi. Həmçinin fransız klubu "Tottenhem"ə də qalib gələrək UEFA Superkubokunu da qazanıb (2:2, penaltilərlə 4:3).

# Macarıstan klubunun futbolçusu: "Qarabağ" düşünülmüş hücumlar qururdu

***"Qarabağ" oyunu çox yaxşı idarə etdi. Bu sözləri AZƏRTAC-a açıqlamasında Macarıstanın "Ferensvaroş" komandasının futbolçusu Kallum O'Douda UEFA Çempionlar Liqasının pley-off mərhələsində "Qarabağ"a (iki oyunun nəticəsi 4:5 ) uduzaraq mübarizəni dayandırdıqları oyun barədə danışarkən deyib.***



O, Ağdam təmsilçisinin futbolçularının güclü və texniki cəhətdən üstün olduqlarını bildirib: "Buna görə də müdafiədə biz daha diqqətli olmalıydıq. "Qarabağ" həqiqətən layiqli şəkildə oynadı, onlar hər şeyi düşünmüşdülər. Topu çox sürətli və ağıllı şəkildə hərəkət etdirirdilər, düşünülmüş hücumlar qururdular. Rəqibi çox analiz etmişdik, amma fərdi olaraq oyunçular güclü idi. Onlar həm yerli liqada, həm də Avropada yaxşı performans sərgiləyirlər. "Qarabağ" yaxşı komandadır". İrlandiya millisinin 30 yaşlı yarımmüdafiəçisi komandasının gələcək hədəflərindən də söz açıb: "Mübarizəmizi Avropa Liqasında davam etdirəcəyik. Bu turnir bizim üçün önəmlidir və artıq ora köklənməliyik".